**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

# Azərbaycanda davamlı inkişafın təmin edilməsində inkluziv artımın rolu.

Bağırova Cəmilə

Elmi rəhbər: R.Z Rzayev

**Bakı 2018**

**Mündəricat**

**Giriş**

**I fəsil Davamlı iqtisadi inkişafın konseptual əsasları ................................ 4**

1.1 Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi və mahiyyəti .......... 4

1.2 Davamlı inkişafı xarakterizə edən göstəricilər ...................................... 17

**II fəsil Azərbaycanda davamlı inkişafın təmin edilməsində inkuliziv artımın rolu**........................................................................................................ 29

2.1 İnkulziv artım, mahiyyəti, təmin edilməsi yolları .................................. 29

2.2 Azərbaycanda davamlı inkişafa nail olmanın cari vəziyyəti ................ 39

2.3 Azərbaycanda inkluziv artımın təmin edilməsi perspektivləri.............47

Nəticələr.......................................................................................................54

Ədəbiyyat......................................................................................................56

# Giriş

**Mövzunun aktuallığı** XX əsrin sonlarından insanlar arasında sosial bərabərsizliyin artması, iqtisadi amillər ilə sosial amillərin bir-biri ilə uyğunlaşmaması, insanların resurslardan kortəbii istifadəsinin intensivləşməsi bəşəriyyətin gələcəyi üçün ciddi təhlükə yaradır. Dünya birliyində "dağıtmadan inkişaf"a keçməyin zəruriliyinə diqqət yönəldi və davamlı inkişaf konsepsiyası meydana gəldi.

Bəşəriyyətin gələcəyi üçün bu narahatlıqlara reaksiya kimi yerdə gedən qlobal proseslərin öyrənilməsi və müvafiq təkliflər verilməsi üzrə bir sıra - Perspektiv tədqiqatlar institutları Federasiyası, Sistemli təhlil beynəlxaq İnstitutu, Roma klubu, SSRİ-də isə Sistemli Tədqiqatlar Ümumittifaq İnstitutu - kimi beynəlxalq qeyri hökumət elmi təşkilatlar yaradıldı.

Digər keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi müstəqil Azərbaycanda da davamlı inkişafın təmin edolməsi əsas məsələlərdən biri kimi qoyulub. Məhz buna görə də davamlı inkişafın təmin edilməsində müxtəlif amillərin, o cümlədən inkluziv artımın rolunun müəyyənləşdirilməsi aktualdır.

**Tədqiqatın məqsədi-** Azərbaycanda davamlı inkişafın təmin edilməsində inkluziv artımın rolunun qiymətləndirilməsi.

**Tədqiqatın obyekti – Azərbaycanda** davamlı inkişafın təmin edilməsi
**Tədqiqatın predmeti-** Davamlı inkişafın təmin edilməsinə inkulizv artımın təsirləri.

**Tədqiqatın vəzifələri-** qarşıya qoyulan məqsədlə şərtlənir. Bu vəzifələr aşağıdakılardır:

-Davamlı inkişafın məzmunun dəqiqləşdirilməsi;

-İnkluziv artımın məzmunun dəqiqləşdirilməsi;

-Azərbaycanda davamlı inkişafın təmin edilməsinin cari vəziyyətinin təhlili;

-Azərbaycanda inkluziv artımın təmin edilməsi perspektivlərinin müəyyənləşdirilməsi.

Tədqiqatın yerinə yetirilməsində sistemli təhlil, müqayisə, məntiqi ümumiləşdirmə kimi tədqiqat metodlarından istifadə olunmuşdur.

**İnformasiya mənbəyi-** kimi yerli və xarici alimlərin mövzuya aid elmi məqalələri, monoqrafiyaları, həmçinin, internet resurslarından götürülmüş materiallardan istifadə olunmuşdur.

## I fəsil Davamlı iqtisadi inkişafın konseptual əsasları

### 1.1 Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi və mahiyyəti

1980-ci illərdən başlayaraq ekoinkişafdan, dağıtmadan inkişafdan, ekosistemin dayanıqlı inkişafının zəruriliyindən danışılmağa başlandı. Bu illərdə BMT-nin Ətraf mühit üzrə Proqramı (UNEP) "dağıtmadan inkişaf"a keçməyin zəruriliyinə diqqət yönəltdi və ilk dəfə UNEP-in Vəhşi təbiətin mühafizəsi beynəlxalq ittifaqı və Vəhşi təbiətin Ümumdünya fondunun təşəbbüsü ilə işlənmiş "Ətraf mühitin mühafizəsinin Ümumdünya strategiyası"nda davamlı inkişaf konsepsiyası geniş ictimailəşdi.

Termin kimi "davamlı inkişaf" (sustainable development) ilk dəfə 1983-cü ildə xüsusi olaraq yaradılmış "Ətraf mühitin mühafizəsi üzrə Beynəlxalq Komissiya"nın hazırladığı hesabatda, komissiyanın rəhbəri Qru Xarlem Bruntland tərəfindən işlədildi.

Davamlı inkişaf dedikdə müəlliflər elə inkişafı nəzərdə tuturdular ki, "gələcək nəsillərin öz tələbatlarını ödəmək imkanlarını pozmadan indiki nəslin tələbatlarını ödəmək imkanları təmin olunsun". Davamlı inkişafın bu tasfiri indi də ölkələrin çoxunda qəbul olunur.

1992-ci ilin iyun ayında Rio de Janeyroda BMT-nin Ətraf mühit və inkişaf üzrə konfransı (UNCED) keçirildi. Bu konfransda bütün dünya birliyinin inkişaf kursunun dəyişdirilməsi haqqda qərar qəbul olundu. Konfransa toplanmış 179 ölkənin liderləri və hökumət başçıları tərəfindən bu cür gözlənilməz qərarın qəbulu, sürətlə pisləşən qlobal ekoloji vəziyyətin və bu prosesin dinamikasının təhlili nəticəsində artıq XXI əsrdə baş verə biləcək yer üzündə bütün canlıların məhvinə səbəb ola biləcək qlobal fəlakət ehtimalının dərk edilməsinin nəticəsi idi.

Davamlı inkişaf modeli adlanan yeni inkişaf modelinə (strategiyasına) keçid mövcudluğunu qoruyub saxlamağa və gələcək inkişafa can atan dünya birliyinin təbii reaksiyası idi.

Bəşəriyyət özünün artan tələbatı ilə təbiəti dağıtmadan bu tələbatı ödəmək imkanlarının yoxluğu arasındakı ziddiyyətlə qarşılaşmışdı.Nəticədə sosial iqtisadi inkişaf qlobal ekofəlakətə aparan, nəyinki gələcək nəsillərin mühüm həyati

tələbatlarının ödənilməsini, hətta onların mövcudluğunu təhlükə altında qoyan bir istiqamətdə gedirdi.

Buna görə də öz təbii əsaslarını məhv etmədən idarə olunan və davamlı inkişafı təmin edən bəşəri inkişaf yoluna keçməklə bu ziddiyyəti həll etmək qərara alındı.

Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi ənənəvi iqtisadiyyatın fundamental əsasını – qeyri məhdud iqtisadi artımı sarsıtdı.1992-ci il BMT-nin Rio DE Janeyroda keçirilən “Ətraf mühit üzrə Konfransı”nın əsas sənədlərindən olan ”XXI əsrin gündəliyi”-ndə belə bir fikir qeyd olunurdu ki, bəzi iqtisadçılar “ənənəvi iqtisadi artım” anlayışını şübhə altına alırlar və bəşəriyyətin dəyişən tələblərinə cavab verən istehsal və istehlak sxemləri axtarmaq lazımdır.

Ənənəvi iqtisadiyyat iddia edir ki, bazar sistemində gəlirlərin maksimallaşması və istehlakçıların tələbatının dolğun ödənilməsi insanların rifahının maksimallaşması ilə uyğundur və bazarın çatışmazlıqlarını dövlət siyasətinin köməyi ilə düzəltmək mümkündür.

Davamlı inkişaf konsepsiyasına görə isə, gəlirlərin qısa müddətli maksimallaşması və istehlakçı fərdlərin artan tələbatının ödənilməsi son nəticədə insanların rifahının və bioloji növlərin mövcudluğunun əsasını təşkil edən təbii və sosial resursların azalmasına və son nəticədə tamamilə tükənməsinə gətirib çıxarar.

R.Kostansa və K.Folke qeyd edirlər ki, davamlı inkişaf iyerarxik əlaqəli olan üç problemin həlli ilə əlaqəlidir:

1. İqtisadiyyatın, həyat təminatının ekoloji sisteminə uyğun gələn davamlı miqyası;

2. Resurslar və imkanların yalnız insanların bu nəsli çərçivəsində yox,eləcə də indiki və gələcək nəsillər arasında və insanla digər bioloji növlər arasında ədalətli bölüşdürülməsi;

3. Resursların zaman üzrə təbiət kapitalını adekvat nəzərə alan , effektiv bölüşdürülməsi.

Davamlı inkişaf özündə iki qarşılıqlı əlaqəli həlledici anlayışı birləşdirir:

- o cümlədən prioritet (əhalinin yoxsul təbəqələrinin mövcudluğu üçün zəruri olan) tələbatlar anlayışı;

- ətraf mühitin, bəşəriyyətin indiki və gələcək tələbatını ödəməsi imkanlarına qoyulan (cəmiyyətin təşkili və texnologiyaların vəziyyəti ilə şərtlənən) məhdudiyyətlər anlayışı.

Davamlı inkişaf konsepsiyası beş əsas prinsipi var:

1.Bəşəriyyət həqiqətən inkişafa indiki nəslin tələbatlarına cavab verəcək və gələcək nəsilləri öz tələbatlarını ödəmək imkanlarından məhrum etməməklə davamlı və uzun müddətli xarakter verə bilər.

2.Təbii resursların istifadəsi sahəsindəki məhdudiyyətlər nisbidir.Bu məhdudiyyətlər texnologiya və sosial təşkilin müasir səviyyəsi, eləcə də, biosferanın insan fəaliyyətinin nəticələrinin öhdəsindən gəlmək qabiliyyəti ilə əlaqədardır.

3.Bütün insanların elementar tələbatlarını ödəmək və hamıya daha firavan həyat ümidlərini reallaşdırmaq imkanı vermək zəruridir.Bunsuz davamlı və uzunmüddətli inkişaf sadəcə mümkün deyil.Ekoloji və digər fəlakətlərin başlıca səbəblərindən biri bu gün dünyada adi hala çevrilmiş hədsiz yoxsulluqdur.

4.Çox yüksək maddi və maliyyə imkanlarına malik olan həyat tərzini planetin ekoloji imkanları (xüsusi ilə enerji istehlakı üzrə) ilə uyğunlaşdırmaq lazımdır.

5.Əhalinin artım səviyyəsi və artım tempi yerin qlobal ekosisteminin dəyişən məhsuldarlıq potensialı ilə uyğunlaşdırılmalıdır.Konsepsiyada qeyd olunur ki, davamlı inkişafın dinamik xarakterlidir və göstərilir ki, davamlı inkişaf dəyişməyən harmonik tarazlıq vəziyyəti deyil, , burada resurslardan istifadə kapital qoyulan sahələr, texnoloji inkişafı və institutsional dəyişikliklər mövcud və gələcək tələblərə uyğun gəlməlidir.

Konsepsiya davamlı  inkişafa əsasən  üç nöqteyi nəzərin – iqtisadi, sosial və ekoloji nöqteyi nəzərlərin birləşməsinin nəticəsi olaraq yaranıb. Buna əsasən də davamlı inkişaf konsepsiyası çox hallarda davamlı inkişafın üç aspektli konsepsiyası da adlanır.Son dövrlərdə davamlı inkişafın dördüncü aspektini-təşkilati idarəetmə aspektini də vurğulayırlar.

Davamlı inkiaf konsepsiyasının iqtisadi aspektinin əsasını gəlirə Con Hiks tərəfindən verilən tərif, məcmu gəlirin maksimal axını prinsipi təşkil edir. Hiks göstərirdi ki, “praktiki həyatda gəlir səviyyəsinin müəyyən olunması insanlara yoxsullaşmamaq üçün nə qədər istehlak etməli olduqlarını göstərmək məqsədi güdür.

Hiksə görə bu gün gəlir əldə edilməsi sabah da bu günkü qədər gəlir əldə etmək imkanını məhdudlaşdırısa bu gəlir hesab oluna bilməz. Bu fikirdən davamlı inkişaf konsepsiyasının əsasını təşkil edən –resurs imkanları ilə uyğun olmayan iqtisadi artımın perspektivsizliyi , başqa sözlə, məhdud təbii resursların iqtisadi optimal istifadəsinin zəruriliyi fikri çıxır.

Pozulmuş landşaftın bərpasına düzgün yanaşmaqla,sənayedə təbiətqoruyucu texnologiyaların tətbiqi ilə təbiətə mənfi yükü azaltmaq,əlverişsiz geoekoloji vəziyyəti düzəltmək,əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaq mümkündür.Onu da qeyd etmək lazımdır ki, yuxarıda göstərilən məsələlərin həlli üzrə effektiv tədbirlərin həyata keçirilməsi yalnız təbiətdən istifadə edənlər tərəfindən təbiəti mühafizə maraqlarının gözlənilməsi şərti ilə mümkündür.

Təbii resursların məhdudluğu fikri artıq çoxdandır ki, fundamental fakt kimi etiraf olunur. Ancaq təbiətin bəxş etdiyi nemətlərin heç də ödənişsiz olmadığı nəticəsi məhz davamlı inkişaf konsepsiyası çərçivəsində çıxarıldı.

Hal hazırda təbii resursların qiymətləndirilməsinə müxtəlif yanaşmalar mövcudur.Ancaq istehsal,təbii və insan kapitalının qarşılıqlı əvəz olunması məsələsinin həllində ,xüsusilə də təbii resursların dəyərinin müəyyən olunmasında şərh problemləri meydana çıxır.

Qeyd etmək lazımdır ki, məhz iqtisadi yanaşma davamlı inkişaf konsepsiyasının əsasını təşkil edir.Eyni zamanda davamlı inkişaf konsepsiyası “iqtisadi effektivlik” anlayışının özünə yeni aspektdən baxmağa imkan yaratdı. Müəyyən olundu ki,həyata keçirilməsi zamanı təbii qanunauyğunluqların nəzərə alındığı uzun müddətli iqtisadi layihələr nəticədə effektiv olur, uzun müddətli ekoloji nəticələrin nəzərə alınmadığı layihələr isə itkilərə gətirib çıxarır.

Davamlı inkişafın sosial komponenti insana yönəlib və sosial və mədəni sistemlərin stabilliyinin qorunub saxlanmasına , o cümlədən, insanlar arasında dağıdıcı konfliktlərin azaldılmasına yönəlib.Bu yanaşmanın mühüm aspekti nemətlərin ədalətli bölüşdürülməsidir.

Məhz sosial problemlərin aradan qaldırılması mühümlüyü son nəticədə davamlı inkişaf konsepsiyasının meydana gəlməsinə səbəb oldu.

Cəmiyyətdə resursların və imkanların insan cəmiyyətinin bütün üzvləri arasında ədalətli paylanması olmadan davamlı inkişaf mümkün deyil.Dünyanın bütün əhalisinin layiqli həyat və rifahına nail olunması dünya birliyinin başlıca məqsədi olmalıdır.

Davamlı inkişaf üçün ilk növbədə insan cəmiyyətinin istisnasız olaraq bütün səviyyələrində bərabər hüquqlu cəmiyyət yaradılması zəruridir.Hər hansı zəmanətli minimal həyat səviyyəsi istənilən insanın ayrılmaz hüququ olmalıdır.Burada eyni zamanda sosial maksimum məsələsi meydana çıxır, başqa sözlə, həyat səviyyəsinin müəyyən yuxarı həddi mövcuddur ki,bu həddən yuxarı istehlak və israfçılıq artıq təqdir olunmur.

Bu konsepsiyasının əsas komponentlərindən biri olan sosial komponentlərinin inkişafının nəticəsi mövcud və gələcək nəsillərin haqqlarının qorunması kimi əsas ideya oldu.Mövcud nəsillərin istifadə etdiyi yer üzünün təbii ehtiyyatlarından istifadə indiki nəsillər ilə bərabər gələcək nəsillərin də haqqıdır.Təbii ehtiyyatlar fondunun çirklənmədən, heç bir zərər görmədən gələcək nəsillərə ötürülməsi davamlı inkişaf üçün zəruridir.

Kopenhagendə 1995-ci il 6-12 martda keçirilən sosial inkişafa görə yüksək səviyyəli ümumdünya konfransından BMT ölkələrinə görə davamlı inkişaf çərçivəsində , davamlı inkişaf üçün milli və beynəlxalq səviyyədə sosial inkişaf, həddən artıq yüksək yoxsulluğun qarşısının alınması, məşğulluğun artırılması,işsizliyinmüəyyən səviyyəsinin aşağı salınması və sosial inteqrasiyaya kömək göstərilməsi üzrə tədbirlər haqqda təkliflər təqdim olundu.Sənəddə qeyd olunurdu ki, sosial inkişafın əsas məqsədi insanların yaşayış səviyyəsini yüksəlməsidir.Bu üçün demoqrafik institutların yaradılmasını, insanların

azadlıqlarına və əsas hüquqlarına rəğbət  göstərilməsini, bərabər iqtisadi imkanların təmin edilməsini,nəzərdətutur. Sosial inkişaf üçün əhəmiyyət daşıyan faktorlardan biri hüquqların verilməsi və təmin edilməsi demokratiya,harmoniyadır.Cəmiyyətin üzvləri yaşadıqları icmanın işlərində aktiv iştirak hüququna və imkanına malik olmalıdırlar.

Kopenhagendə qəbul olunmuş sosial inkişaf naminə fəaliyyət proqramı davamlı inkişafın əsas parametrlərini qeyd etdi və dəqiqləşdirdi.Bu parametrlərdə davamlı inkişafın sosial aspektlərini təşkil edən , indiki vaxtda konstruktiv əməkdaşlığın razılaşdırılmış aşağıdakı sosial siyasi prioritetləri, məqsəd və vəzifələri əks olunub.

-Cəmiyyətin fəaliyyətini və rifahını müəyyən edən qərarların işlənməsi və qəbulunda vətəndaş cəmiyyətinin geniş iştirakı;

-Demoqrafik aspektin iqtisadi strategiyaya inteqrasiyası və davamlı inkişaf və davamlı iqtisadi artımın geniş miqyaslı modeli;

-Artımın şərtləndirdiyi gəlirlərin sosial qruplar və ölkələr arasında ədalətli və ayrıseçkilik olmadan bölüşdürülməsi və ifrat yoxsulluq şəraitində yaşayan insanların məhsuldar resurslara çıxış inkanlarının genişləndirilməsi;

-Effektiv və sosial inkişafı artıran bazar qüvvələrinin qarşılıqlı təsiri;

-Sosial ziddiyyətlərə aparan amillərin dəf edilməsinə,plyuralizmə və rəngarəngliyə hörmətə yönəlmiş dövlət siyasəti;

-Demokratiya, inkişaf,bütün insan hüquq və azadlıqları arasında əlaqələrin möhkəmlənməsinə yardım edən əlverişli və stabil siyasi və hüquqi struktur;

-Təcridolunmaya yol verməmək və plyuralizm və rəngarənglik (o cümlədən dini və mədəni rəngarəngliyin) gözlənilməsi ilə xarakterizə olunan siyasi və sosial proseslər;

-Əhali məskunlaşması və inkişaf üzrə Beynəlxalq konfransda və sosial inkişaf naminə yüksək səviyyədə ümumdünya görüşünün deklarasiyasında elan olunan məqsəd, öhdəlik və prinsiplərə uyğun olaraq ailənin rolunun möhkəmləndirilməsi;

Biliklərə, texnologiyalara, təhsilə , tibbi xidmətlərə və informasiyalara çıxış imkanlarının genişləndirilməsi;

- Bütün səviyyələrdə həmrəylik,əməkdaşlıq və partnyorluğun möhkəmləndirilməsi.

Eyni zamanda qlobal miqyasda mədəni kapitalın və rəngarəngliyin saxlanması və hakim olmayan mədəniyyətlərin dayanıqlı inkişaf təcrübəsinin daha tam istifadəsi arzu olunandır.İnkişafın davamlılığının təmin olunması üçün cəmiyyətdə plüralizmə əsaslanan və tarixi təcrübəni nəzərə alan daha effektiv qərar qəbulu sistemi yaradılmalıdır.

Davamlı inkişaf konsepsiyasına görə əsas sərvət insandır. Bu fikirə əsaslanaraq qeyd olunur ki, insan yaşadığı müddətdə həyat fəaliyyəti sferasını formalaşdıran proseslərdə iştirak etməli, qərarların qəbulu və hayata keçirilməsinə yardım etməli və qərarların icrasına nəzarət etməlidir.

Əsas məsələlərdən biri böyüyən nəsildə düzgün dəyərlər sisteminin formalaşdırılmasıdır.Estetik və mənəvi normaların səviyyəsinə yüksək tələb dayanıqlı inkişafa döğru mühüm addımdır.

Bu məsələlərlə əlaqədar ali təhsilə xüsusi diqqət verilməsi zəruridir.Təbii ehtiyatlar bazasının tükənməsi, ətraf mühitin antropogen çirklənməsi və digər ekoloji, sosial və hüquqi problemlər bu gün yeni elmi nəzəriyyələrin, yaradılmasını, yeni texnologiyalar, texnoloji həllər,yeni meyarlar,hədəflərsosial və təbiət sistemlərində gedən proseslərin idarə olunması məsələləri, cəmiyyətin sonrakı inkişafının optimal modelinin layihələşdirilməsini şərtləndirir.

Dünya birliyi tərəfindən inkişafın istiqamətinin dəyişməsi və cəmiyyətin yeni dəyərlər və prioritetlərə əsaslanan insanların təhlükəsizliyi və layiqli həyatının təmin olunmasına yönəlmiş , dünya birliyinin gələcək inkişaf üçün davamlı bünövrə ola biləcək yeni qarşılıqlı təsir modelinin formalaşması haqda siyasi qərar qəbul olunub.

Davamlı inkişafa keçid və davamlı inkişaf templərində əhəmiyyətli dəyişikliklərə nail omaq o halda mümkün olur ki, ali ixtisas təhsilində köklü müsbət dəyişikliyi baş versin.Bunun üçün tədris olunan fənnlər dairəsinin genişlənməsi, davamlı inkişaf ilə əlaqədar məsələlər tədris planlarına daxil edilməsi ilə bərabər, fundamental nəzəriyyələrin əsasındaformalaşmış

ekoloji,sosial və iqtisadi şərtlər daxilində insanın həyat fəaliyyətinin davamlı inkişaf modelini yaratmaq qabiliyyətinə sahib olan mütəxəssislərin hazırlanması zəruridir.

Davamlı inkişafın mühüm komponentlərindən biri də ekoloji komponentdir.Ekoloji nöqteyi nəzərdən davamlı inkişaf təbii sistemlərin bioloji və fiziki tamlığını təmin etməlidir.

Bu gün bütün ölkələrin qarşısında duran mühüm problemlərdən biri iqtisadi artımın təmin edilməsidir.Bu isə həmişə mühitin çirklənməsi və deqradasiyası, təbii resursların tükənməsi, biosferanın tarazlığının pozulması ilə əlaqədardır və iqlim dəyişikliklərinə, insanların sağlamlığının pisləşməsinə səbəb olmaqla gələcək inkişaf imkanlarını məhdudlaşdırır. Bu o deməkdir ki, insanların rifahının yüksəldilməsi kimi mühüm məsələnin həlli zəruri həyat keyfiyyətini təmin edə bilmir.Ekoloji tərəfdən yanaşsaq onu qeyd etməliyik ki, davamlı inkişaf fiziki və bioloji sistemlərin stabilliyini təmin etməlidir.

Qeyd etmək lazımdır ki, ekoloji aspektdən davamlı inkişaf konsepsiyasını "ekstremist" ekoloji –iqtisadi konsepsiyalardan, o cümlədən müxtəlif ekotopiya konsepsiyalarından fərqləndirmək zəruridir. Bu konsepsiyalar ümumiyyətlə, iqtisadi inkişafın məhdudlaşdırılmasına çağırır.Ekotopiya konsepsiyalarının əsas istiqaməti təbiətə, bioloji və mədəni müxtəlifliyə qayıtmaq, sadə texnologiyalar və elmi-texniki tərəqqidən imtina olunmasıdır.İqtisadi inkişafın bu növünün seçilməsi cəmiyyətin həyat standartlarının azalmasına apardığı üçün az realdır.

Beləliklə, biosferanın davamlı inkişafın yeganə və əsas məqsədi kimi baxıla bilməz.Davamlı inkişafın əsas məqsədi insanın bioloji növ kimi mövcudluğunun saxlanmasıdır. Eyni zamanda getdikcə daha çox insan dərk edir ki, insanın təbii yaşayış mühitinin deqradasiyası hələ məlum olmayan kritik səviyyəni keçərsə insanların gələcək mövcudluğu özü qeyri mümkün ola bilər.

Bu gün dünyanın bir çox ölkələri davamlı inkişafın təmin edilməsi üzrə ekoloji sferada effektiv tədbirləri uğurla həyata keçirirlər.

Skandinaviya ölkələri ekoloji əlverişli yeni texnologiyalar, məhsul və xidmətlər istehsal edən sahələrin inkişafını nəzərdə tutan iqtisadiyyatın yenidən strukturlaşmasına gedirlər.

Dünya iqtisadiyyatının gələcəyinə qlobal iqlim dəyişikliyi ilə mübarizə və enerji effektivliyinin yüksəldilməsi güclü təsir göstərəcək. Bu gün qlobal istixana qazlarının tullantılarının yarıdan çoxu dörd ölkənin - Çin, ABŞ, Hindistan və Rusiyanın payına düşür.

2020-ci ilə qədər Avropa İttifaqı ölkələrinin enerji effektivliyini 20% yüksəltmək və yenidən bərpa olunan enerji mənbələrinin 20%-ə çatdırmaq, istixana qazlarının tullantılarını 20% azaltmaq cəhdi (20:20:20 planı) Avropa iqtisadiyyatında köklü dəyişiklərə gətirib çıxara bilər.

Ekoloji prioritetlər yalnız inkişaf etmiş ölkələrdə deyil, mənəvi olaraq ətraf mühitin qorunması maraqlarının iqtisadi artıma tabe olunduğu inkişaf etməkdə olan ölkələrdə də daha böyük rol oynamağa başlayır. Bu istiqamətdə dünyanın ikinci ən böyük iqtisadiyyatı olan və ağır ekoloji vəziyyətdə olan Çinin həyata keçirdiyi siyasəti qeyd etmək olar. Çin öz tarixində ən nəhəng ekoloji islahatları işə salır. 2011-ci ildə qüvvəyə minən beş illik “yaşıl” plan ətraf mühitin çirklənmə səviyyəsini aşağı salınmasına və təbii resursların istifadəsində yeni texnologiyaların tətbiqinə, “yaşıl” vergiqoymanın tətbiqinə (vergi əməyə yox, sərf olunan resurslara qoyulur) əsaslanan yeni ekoloji tənzimləmə sisteminin tətbiqini nəzərdə tutur.

Həttda Çində tullantılara görə ekoloji ödənişlər sistemi, tullantılara kvotaların satışa görə daxili sxem də işlənir.

Davamlı inkişaf ideyası get-gedə daha çox nəzəri sferadan praktiki sferaya keçir.Artıq 20 ildən çoxdur ki, Davamlı inkişaf üzrə Ümumdünya Biznes Şurası fəaliyyət göstərir. Şura 1992-ci ildə Rio de Janeyro sammiti ərəfəsində yaradılıb,məqsəd forumda sahibkarların təmsil olunmasının təmin olunmasıdır. Hal hazırda şuranın tərkibinə bütün dünyadan 190 nüfuzlu şirkət daxildir (Ford, Mitsubişi, Canon, Hitachi, İKEA və s.). Bu şuranın,ən iri dünya şirkətlərinin həyata keçirdikləri tədqiqatlara əsaslanan proqnozlarına görə davamlı inkişaf

bazar liderləri üçün yaxın on ildə 6,2 trilyon dollar həcmində qiymətləndirilən biznes imkanları açır. Bu əsasən, konseptual və praktiki olaraq davamlı inkişafla məşğul olan şirkətlərə aiddir.

Bir çox nüfuzlu beynəlxalq təşkilatlar kimi, Beynəlxalq Valyuta Fondu da davamlı inkişaf problemlərinin həlli ilə məşğul olur. BVF qlobal maliyyə -iqtisadi böhrandan sonra aşağı karbonlu iqtisadi inkişaf modelinə keçidin zəruriliyini qeyd etdi və bu keçidin maliyyələşdirilməsi üçün bir neçə il ölkələrə iqtisadi dəyişikliklər ilə əlaqədar problemlərin həlli üçün zəruri olan ildə 100 mlrd dollar resurs ayıra biləcək "Yaşıl Fond" yaradılması üzrə təkliflər hazırlayır. Bu təklif BVF-nun keçmiş rəhbəri Dominik Stross Kan tərəfindən 30 yanvar 2010-cu ildə Davos İqtisadi Forumunda səsləndirilib.

Son 10 illiyin mühüm dünya meyllərindən biri də şirkətlər və korporasiyalar tərəfindən davamlı inkişaf haqda kompleks hesabatların hazırlanmasıdır.Bu hesabatlar artıq şirkətlər tərəfindən təqdim olunan ümumi hesabatların 75%-ni təşkil edir.

Davamlı inkişaf və onun aspektləri haqda qeyd etdikdən sonra davamlı inkişafın məqsədləri haqqda da qeyd etmək istəyirəm.

XXI əsrin başlanğıcında BMT üzvü olan dövlətlər ən yoxsul millətlərə daha fəal yardım göstərilməsi zırurətini etiraf edərək davamlı inkişafın əsas məqsədlərini müəyyənləşdirdilər. Minilliyin inkişaf məqsədləri adlanan bu sənəddə ümumi, vahid məqsəd kimi dünyanın ən yoxsul ölkələrində sosial və iqtisadi şəraitin yaxşılaşdırılması yolu ilə inkişafın sürətlənməsi qəbul edilir.

2000-ci ilin sentyabrında BMT Baş Assambleyasının 55-ci sessiyası öz işinə başladı. Bu tədbirdə 185 ölkənin dövlət və hökumət başçıları iştirak edirdilər.2000-ci ilin 8 sentyabrda BMT Baş Assambleyasının 55/2 saylı qətnaməsi ilə " BMT Minilliyin Bəyannaməsi" qəbul olundu. Bu bəyannamədə minilliyin inkişaf məqsədləri əks olunub.Minilliyin İnkişaf Məqsədləri aşağıdakılardır:

Məqsəd 1.İfrat yoxsulluğun və aclığın aradan qaldırılması;

Məqsəd 2.Ümumi təhsil imkanlarının genişləndirilməsi;

Məqsəd 3.Qadın və kişilər arasında bərabərliyin yaradılması və qadınların hüquqlarının genişləndirilməsi;

Məqsəd 4. Uşaq ölümünün qarşısının alınması;

Məqsəd 5.Analığın mühafizəsinin yaxşılaşdırılması;

Məqsəd 6. HİV/AİDS, maliyariya və digər xəstəliklərə qarşı mübarizə;

Məqsəd 7. Ekoloji davamlığının qorunması;

Məqsəd 8. İnkişaf məqsədli qlobal əməkdaşlığın formalaşması;

Bütün ölkələrdə bu məqəsdlər heç də eyni uğurlu şəkildə aparılmır. Bəzi ölkələrdə məqsədlərə uğurlu şəkildə çatsalarda, digər ölkələrdə isə bu məqsədlərə hələ də çatmayıblar. Əhəmiyyətli tərəqqiyə nail olan ölkələrə Çini və güclü daxili və xarici inkişaf fakotrlarına malik  olan Hindistanı misal  göstərmək olar.

Afrika ölkələrinin bəzilərini isə bu məqsədləri uğurlu şəkildə həyata keçirməyənlərə aid etmək  olar, həmən ölkələrdə yoxsulluq cəmi 1% azalıb.

2012-ci il Rio+20 sammitində minilliyin inkişaf məqsədlərinin uğurları etiraf olunmaqla yekun sənəd – "Bizim istədiyimiz gələcək"-də ölkələr davamlı inkişaf sahəsində kompleks məqsədlərin işlənməsi üçün açıq tərkibli işçi qrup yaratmaq haqda razılığa gəldilər. Bir ildən çox müddət ərzində intensiv işləyən işçi qrup on yeddi konkret məqsəd və bununla əlaqədar 169 vəzifə müəyyənləşdirdi..

Iki ildən çox hökümətlər arasında məqsədlərin siyahısı üzrə danışıqlar davam etdi.Danışıqların zamanı cəmiyyətin və digər maraqlı tərəflərin təklifləri müzakirə olundu. Bu açıq və şəffaf müzakirələrin nəticəsi kimi 2015-ci ildə 25-27-sentyabr Nyu Yorkda keçirilən Davamlı inkişaf üzrə Sammitdə "Bizim dünyamızı dəyişərək: 2030-cu ilə qədər davamlı inkişafın gündəliyi" adı altında yekun sənəd qəbul edildi.

Bu sənəddə 2002-ci il davamlı inkişaf üzrə yüksək səviyəli plenar iclasın, 2012-ci il Rio de Janeyroda keçirilən (Rio +20) BMT davamlı inkişaf üzrə konfransın nəticələri və bütün dünyada insanların fikirləri nəzərə alınıb.

Sənəddə əks olunmuş məqsədlər "Minilliyin inkişaf məqsədləri"-ndə nəzərdə tutulan məqsədlərin məntiqi davamı kimi baxıla bilər.

Sənəddə əks olunmuş davamlı inkişafın məqsədləri aşağıdakılardır:

1.Səfalətin bütün formalarının hər yerdə ləğv olunması.

2.Aclığın aradan qaldırılması, ərzaq təhlükəsizliyinin artıtılması,kənd təsərrüfatının davamlı inkişafına kömək göstərilməsi.

3.Sağlam həyat tərzinin yüksəldilməsi və hamı üçün bütün yaşlarda rifah səviyyəsinin yuksəldilməsi.

4.Hamı üçün keyfiyətli təhsilin təmin edilməsi və hamı üçün yaşadığı sürədə tədris imkanlarının təşviq olunması.

5.Gender bərabərliyinin təmin olunması və qadınların, qızların hüquq və imkanlarının genişləndirilməsi.

6.Hər kəs üçün su ehtiyatlarının mövcudluğu və onlardan səmərəli istifadənin və təmizliyin təmin edilməsi.

7.Hamı üçün etibarlı ,ucuz,davamlı və müasir enerji təhizatının rahat istifadəsinin təmin edilməsi.

8.Davamlı iqtisadi artıma, hər kəs üçün məhsuldar məşğulluq və layiqli işin təmin olunmasına köməklik göstərilməsi.

9.Davamlı sənayeləşdirməyə yardım edilməsi, innovasiyalara dəstək.

10. Ölkələr daxilində və ölkələr arasında balanslaşdırılmanın yaradılması.

11. Şəhərləri ,yaşayış məntəqələrini həyat qabiliyyətli, davamlı və təhlükəsiz hala gətirmək.

12.İstehsal və istehlakın səmərəli modellərinin təmin olunması.

13. İqlim dəyişikliyi və onun nəticələri ilə mübarizə tədbirlərinin həyata keçirilməsi.

14.Davmlı inkişaf görə təbii su mənbələrindən(dənizlərdən okeanlardan) istifadə və onların qorunması.

15. Quruda ekosistemlərin qorunması , onlardan rasional istifadə olunmasına köməklik göstərilməsi, meşələrdən səmərəli istifadə, səhralaşmanın qarşısının alınması, tükənən resurslardan rasional istifadə.

16.Davamlı inkişafgörə azad cəmiyyətin yaradılması üçün imkanların genişləndirilməsi hər kəs üçün ədalət məhkəməsinə çıxış üçün şəraitin yaradılması.

17.Davamlı inkişafı təmin etmək üçün vasitələrinin gücləndirilməsi və davamlı inkişaf üçün tərəfdaşlıq sistemlərinin işinin fəallaşdırılması.

Davamlı inkişafın məqsədlərinin Minilliyin inkişaf məqsədlərindənfərqlidir. Belə ki, əhəmiyyətli fərqi sənədin kompleks xarakteri ilə bağlıdır. Bu sənəddə inkişafa yardım konsepsiyası dəyişib. Qəbul olunmuş sənədin əsas xüsusiyyəti ondadır ki, o, üçüncü dünya ölkələri kimi inkişaf etmiş ölkələrə də aiddir.

Sənəddə davamlı inkişafda mühüm rolu insan hüquqlarının oynadığı da qeyd olunur.

"Davamlı inkişafın məqsədləri"nin özünə məxsus xarakterik xüsusiyyətləri var:

1.Universallıq. Əgər minilliyin inkişaf məqsədləriancaq inkişaf etməkdə olan ölkələrə aid idisə, Davamlı inkişafın məqsədləri universal xarakterli olub bütün dünya ölkələrində tətbiq oluna bilər.

2.Dəyişiklərə istiqamətlənmə. "İnsanlar, planet, dünyanın çiçəklənməsi və tərəfdaşlıq" üçün fəaliyyət planı kimi Davamlı inkişafın məqsədləri ənənəvi inkişaf modelindən imtina etməyi təklif edir.Sənəd davamlı inkişafa baxışın dəyişdiyini, insan hüquqlarına əsaslanan, gender aspektlərini nəzərə alan və diqqət mərkəzində insanlar və planetin maraqlarının dayandığı yeni baxış təklif edir.

3.Hərtərəfli xarakteri. Sosial, iqtisadi və ekoloji məsələlərin geniş dairəsi ilə bərabər 2030-cu ilə qədər Gündəlik "qorxu və zorakılıqdan azad,daha sülhsevər, ədalətli və inklyuziv cəmiyyətin yaradılmasını nəzərdə tutur. Sənəd demokratik idarəetməyə, hüququn aliliyinə, ədalət məhkəməsinin əlçatanlığına və şəxsiyyətin toxunulmazlığına, eləcə də əlverişli beynəlxalq mühitə xüsusi diqqət ayırır.Beləliklə, sənəd insan hüquqlarının bütün sferalarını, o cümlədən iqtisadi, vətəndaş,mədəni, siyasi, sosial hüquqları və inkişaf hüquqlarını əhatə edir.

4. İnkluzivlik. Yeni gündəlik ölkələr arasında və ölkə daxilində "bərabərliyə hörmət və ayrıseçkiliyin olmamasının təmin olunduğu,gender bərabərliyinin mövcud olduğu dünya" yaradılmasını nəzərdə tutur.Sənəd bütün dövlətlərin "heç bir fərq qoymadan, irqindən,dərisinn rəngindən, cinsindən,dilindən, dinindən, siyasi və digər baxışlarından, milli və ya sosial mənsubiyyətindən, mülkiyyət

vəziyyətindən,doğulduğu yerdən, fərdiyyətindən və digər statusundan" asılı olmadan insan hüquqlarına hörmət etməsi, qoruması və həvəsləndirilməsi öhdəliyini təsdiq edir.

## 1.2 Davamlı inkişafı xarakterizə edən göstəricilər

Davamlı inkişafın məqsədlərinə nail olunması üçün nəzarət, bu prosesin idarə olunması, istifadə olunan vasitələrin səmərəliyinin və qoyulmuş məqsədlərə nə dərəcədə nail olunmanın qiymətləndirilməsi müvafiq göstəricilərin – davamlı inkişaf indikatorlarının işlənməsini zəruri edir.

1992-ci ildə Rio-de-Janeyroda keçirilən BMT-nin davamlı inkişaf üzrə Konfransında Davamlı inkişaf indikatorlarının işlənməsi zəruriyyəti təsdiq olundu. Bu sənədin əsas məqsədi dünyanın XXI əsrdə bəşəriyyətin qarşısına çıxan bütün problemlərin həllinə hazırlaşmaq idi.

Bu günki dövrdə dünyada bir sıra təşkilatlar davamlı inkişaf indikatorlarının işlənməsi ilə məşğuldur.Bu beynəlxalq konfrans və seminarlarda müzakirə olunmaqdadır.

Davamlı inkişaf indikatorlarının hazırlanması çox bahalı və kompleks prosedur olub, əldə olunması çətin,bəzi hallarda qeyri mümkün olan böyük miqdarda informasiyanın zəruriliyini tələb edir. Davamlı inkişaf indikatorları qlobal, regional, milli, lokal ,sahələr üzrə işlənə bilər.

Davamlı inkişaf indikatorlarının işlənməsi vacibliyi aşağıdakı hallarla bağlıdır:

-indikatorlar hər hansısa halı qiymətləndirərək qəbul olunan qərarların səbəbini aydınlaşdırmaq üçün istifadə olunur;

-indikatorlar yeniliklərəfikir bildirməyə kömək edir;

-indikatorların istifadə etməklətəbii resurlardan istifadə normasını ,təbiətdən istifadə zamanı zərərin müəyyənləşdirməsinə kömək edir;

-indikatorlar istifadəçilərin informasiyaları əldə etmələrini asanlaşdırır;

İndikatorlar zəruri kommunikativ funksiyaları da yerinə yetirirlər.Məsələn, cəmiyyəti ətraf mühit indikatorları məlumatlandırmaqla ekoloji təhlükələri diqqət mərkəzinə gətirirlər

Dünya təcrübəsində Davamlı inkişaf indikatorlarının hazırlanması onların qurulmasına iki yanaşma mövcuddur:

1.Davamlı inkişafın müxtəlif faktorların hər birini əks etdirən indikatorlar sisteminin formalaşmasıdır. Bu zaman göstəricilər aşağıdakı kimi qruplaşdırılır:

-ekoloji indikatorlar,

-iqtisadi indikatorlar,

-sosial indikatorlar,

-institusional indikatorlar.

2.İnteqral, birləşdirilmiş indikatorların formalaşdırılması bu indikatorlar əsasında sosial –iqtisadi davamlı inkişaf haqda şərh etmək mümkündür. İndikatorların birləşdirilməsi üç qrup göstəricilərə görə tətbiq olunur:

-ekoloji- iqtisadi,

-ekoloji-soosial-iqtisadi,

-ekoloji.

BMT Davamlı inkişaf üzrə Komissiyası tərəfindən işlənib hazırlanmış indikatorları sistemi əhatə dairəsinə görə tam formalaşmış davamlı inkişaf indikatorudur. Davamlı inkişaf indikatorları aşağıdakı əsas qruplara bölünür:

- Davamlı inkişafın sosial aspektlərinin indikatorları;

- Davamlı inkişafın iqtisadi aspektlərinin indikatorları;

- Davamlı inkişafın ekoloji aspektlərinin indikatorları

- Davamlı inkişafın institusional aspektlərinin indikatorları

Məqsədli istifadəyə əsasən indikatorları üç qrupa ayırırlar:

-Hərəkətverici qüvvə indikatorları. Davamlı inkişafa təsir edən fatorlar, proses və xüsusiyyətlərini xarakterizə edir;

-Vəziyyət indikatorları; davamlı inkişafın müxtəlif sahələrinin ,aspektlərinin hal hazirdakı və gələcək vəziyyətini xarakterizə edir;

- Reaksiya göstərmə indikatorları; daimi inkişafın hazırki və gələcək vəziyyətin dəyişməsinə əsasən siyasi və başqa reaksiya göstərmə üsulunu tətbiq etməyə şərait yaradır.Cədvəl 1-də BMT Davamlı inkişaf üzrə Komissiyası tərəfindən işlənib hazırlanmış indikatorlar verilmişdir.

Cədvəl 1

Davamlı inkişaf indikatorları

| XXI əsrin gündəliyi Bölmə | İndikator hərəkətverici qüvvə | Cari vəziyyət indikatorları | Reaksiya göstərmə indikatorları |
|---|---|---|---|
| **S o s i a l i n d i k a t o r l a r** | | | |
| Yoxsulluqla mübarizə | Məşğulluğun artım tempi , %<br>Qadınların və kişilərin orta əmək haqlarının nisbəti | Mütləq yoxsul yaşayan əhali, %<br>Ən varlı və yoxsulların gəlirlərinə görə nisbəti | |
| Demoqrafik dinamika | Əhalinin artım tempi, %<br>Əhalinin miqrasiya tempi, insan/il | Əhalinin sıxlığı, Adam/km2 | Doğumun artımı |
| Təhsilə, kadr hazırlığına və cəmiyyətin məlumatlandırılmasına dəstək | Məktəb yaşlı əhalinin artım tempi<br>İbtidai məktəb şagirdlərinin sayının artımı, %<br>Orta məktəb şagirdlərinin sayının artımı, % | Yaşlılar arasında savadlıların payı,%<br>5 sinif səviyyəsində təhsili olan əhalinin payı,%<br>Məktəbdə təhsil illərinin sayı | Təhsil xərclərinin ÜMM-də payı,%<br>Orta məktəbdə 100 oğlana düşən qızların sayı,<br>İşləyənlər |

| | | | |
|---|---|---|---|
| | | | arasında 100 kişiyə düşən qadınların sayı |
| Əhalinin sağlamlığının müdafiəsi | Təmiz içməli sudan istifadə etməyən əhalinin payı, %<br>kanalizasiya sistemi ilə təchiz olunmamış yerdə yaşayan əhalinin payı, %<br>Sağlamlıq üçün zərərli, havanı çirkləndirən maddələrin təsirinə məruz qalan əhalinin payı, % | Sağ doğulmuş 1000 uşağa düşən uşaq ölümü,<br>Doğularkən gözlənilən orta ömür uzunluğu,<br>1000 doğan qadına düşən ana ölümləri | Səhiyyə xərclərinin ÜMM-də payı,%<br>İlkin tibbi yardımla əhatə olunan əhalinin payı, %<br>Əsas yoluxucu xəstəliklərə qarşı peyvənd olunmuş əhalinin payı, % |
| Məskunlaşma yerlərinin davamlı inkişafına yardım | Şəhər məntəqələrinin artım tempi, %<br>Adam başına düşən mühərrik yanacağı sərfi, litr<br>10 mln və artıq əhalisi olan meqapolislərin sayı | Şəhər əhalisinin payı, %<br>Marginal məskənlərin sahəsi və əhalisi,m2/say<br>Təbii fəlakətlərdən dəyən zərər və zərərçəkən və həlak olanların sayı<br>Adam baına ümumi yaşayış sahəsi, m2<br>Gəlirlər və mənzil | Ucuz mənzil tikintisinə çəkilən xərclər<br>İctimai nəqliyyatın saxlanmasına çəkilən xərclər<br>Adam başına infrastruktur xərcləri<br>Mənzil tikintisinə |

| | | | |
|---|---|---|---|
| | | haqqının nisbəti | verilən kreditlər |

**İ q t i s a d i   i n d i k a t o r l a r**

| | | | |
|---|---|---|---|
| İqtisadi inkişaf | Adam başına düşən ÜMM –un artım tempi<br>Əmtəə və xidmətlərin ixracı<br>Əmtəə və xidmətlərin idxalı | Adam başına düşən ÜMM<br>Ekoloji zərərə görə düzəlişlə adam başına düşən milli məhsul<br>İstehsal fəaliyyətinin ÜMM-də payı, %<br>ÜMM-da ixracın payı, % | İnvestisiyaların ÜMM-də payı<br>Regional ticarət sazişlərində iştirak,(hə/yox) |
| İstehlakın xarakterinin dəyişməsi | Mineral resursların ehtiyatlarının azalması,(təsdiq olunmuş ehtiyatlardan %-lə)<br>Hər il adam başına enerji istehlakı | Mineral xammalın təsdiq olunmuş ehtiyatları, (t)<br>Təsdiq olunmuş energetik resurslar (neft ekvivalentində)<br>Təsdiq olunmuş energetik resurslarının tükənmə müddəti,(il)<br>Təbii xammalın | İstehlak olunan bərpa olunan resursların bərpa olunmayan resurslara nisbəti |

| | | | |
|---|---|---|---|
| | | dərin emalı məhsullarının istehsal olunmuş məhsulun dəyərinə töhfəsi<br>İxrac məhsuluna istehsal töhfəsi | |
| Maliyyə resursları və mexanizmlər | Resurslar satışının ÜMM-də payı, % | İnkişafa xarici yardım (alınan və ya verilən, ÜMM-də %-lə)<br>Borclar (ÜMM-də %-lə)<br>Borclara xidmət (borca görə %-lə) | ÜMM-un ətraf mühitin mühafizəsinə ayrılan hissəsi,%<br>Ekoloji vergilər və subsidiyalar,(dövlət gəlirlərində %-lə)<br>1992-ci ildən sonra davamlı inkişafa ayrılan əlavə maliyyənin həcmi<br>İnteqrasiya olunmuş ekoloji –iqtisadi hesablar proqramı (hə/yox)<br>Borcların |

| | | | |
|---|---|---|---|
| | | | ödənməsi |

**Ekoloji indikatorlar(Su resursları)**

| | | | |
|---|---|---|---|
| İçməli su ehtiyatlarının mühafizəsi və keyfiyyəti | Yeraltı və səth sularının illik götürülməsi (əlçatan həcmdə %-lə)<br>Adambaşına düşən su sərfiyyatı | Yeraltı su ehtiyatları(m3)<br>İçməli su mənbələrində nəcis Coli-formanın qatılığı (100 ml-də sayı)<br>Su mənbələrinə görə oksigenin biokimyəvi və kimyəvi istehlak göstəriciləri | Tullantı sularının işlənməsi (xidmət olunan əhali üzrə tam və işləmə növünə görə %-lə) |
| Okeanlar, dənizlər və sahil zonalarının mühafizəsi | Dəniz resurlarının tutulması (ovlanması) (t)<br>Sahil zonalarında əhalinin artımı (%)<br>Sahilyanı zonada neft tullanması (t)<br>Sularda azot və fosfor birləşmələrinin toplanması | Dəniz ehtiyatlarının davamlı təkrar istehsalı təmin edən səviyyədən kənara çıxması,(%)<br>Bu kənara çıxmanın real ehtiyatlara nisbəti<br>Dəniz su bitkilərinin inkişaf indeksi | Dənizlər haqda sazişlərdə iştirak (hə/yox) |

**Ekoloji indikatorlar (Torpaq resursları)**

| | | | |
|---|---|---|---|
| Torpaq resurslarının planlaşdırılması və istifadəsinə inteqrasiya olunmuş yanaşma | İstifadə olunan torpaqlar | Eroziyaya məruz qalan torpaqlar ($km^2$) | Torpaq siyasətinin islahatı (hə/yox) |
| Zəif ekosistemlərin idarə olunması, səhralaşma və quraqlıqlarla mübarizə | Adam başına isitmə üçün odundan istifadə (m3)<br>Quraqlıq zonalarda hər $km^2$ -ə düşən ev heyvanlarının sayı<br>Quraqlıq zonalarda yoxsulluq səviyyəsindən aşağı səviyyədə yaşayan əhali (%) | Səhralaşmanın toxunduğu torpaqlar (km2)<br>Quraqlıqların baş vermə tezliyi | Ekosistemlərin bərpasına çəkilən xərclər |
| Kənd təsərrüfatının davamlılığına və yerli inkişafa dəstək | Kənd təsərrüfatında pestisidlərdən istifadə (t/ $km^2$)<br>Gübrələrdən istifadə (t/ $km^2$)<br>Adam başına düşən əkin torpaqlarının sahəsi (ha)<br>Suvarılan torpaqlar (%) | Şoranlaşma və bataqlıqlaşmaya məruz qalan torpaqların miqdarı ($km^2$) | Kənd təsərrüfatının dəstəklənməsinə və bu sahədə tədqiqatlara çəkilən xərclər<br>Bərpa olunmuş torpaqların sahəsi ($km^2$) |

**Ekoloji indikatorlar (Digər təbii resurslar)**

| | | | |
|---|---|---|---|
| Meşələrin azalması ilə mübarizə | Meşələrin qırılması tempi (ildə km²)<br>İllik emal olunmamış ağac (şalban) istehsalı (m3) | Oduncaq ehtiyatları (m3)<br>Meşələrin sahəsi (km²)<br>Oduncaq istehlakı (enerji istehlakının %-i) | Meşələrin bərpa olunma tempi tempi (ildə km²)<br>Mühafizə olunan meşələrin payı (%) |
| Bioloji müxtəlifliyin qorunması | | Tükənmiş və təhlükə altında olan növlərin sayı | Qoruq ərazilərinin sahəsi,(ümumi ərazidə %-lə) |

**Ekoloji indikatorlar (Tullantılar)**

| | | | |
|---|---|---|---|
| Tullantıların idarə olunması | İstehsal və bələdiyyə tullantılarının həcmi (ildə t)<br>Təhlükəli tullantıların həcmi (t)<br>Təhlükəli tullantıların idxalı və ixracı (gətirilməsi və aparılması) , (t) | Adam başına tullantıların həcmi (t)<br>Təhlükəli tullantılarla çirklənmiş torpaqların sahəsi (km²) | Tullantıların toplanması və emalına çəkilən xərclər<br>Zərərsizləşdirilmiş tullantıların payı (%)<br>Bələdiyyə tullantılarının utilizasiyası (adam başına t-la) |
| | | | ÜMM vahidinə tullantıların azalması tempi, (t/il) |

| | | | |
|---|---|---|---|
| | | | Təhlükəli tullantıların emalına çəkilən xərclər |

**Təşkilati indikatorlar**

| | | | |
|---|---|---|---|
| Qərar qəbulunun strukturu | | Ekoloji zərərin qiymətləndirilməsi metodlarının təsdiqlənməsi (hə/yox)<br>Ətraf mühit üzrə milli statistika proqramlarının mövcudluğu və davamlı inkiçaf indikatorlarının qəbulu (hə/yox)<br>Davamlı inkişaf üzrə milli strategiyanın mövcudluğu (hə/yox)<br>Davamlı inkişaf üzrə milli şuranın mövcudluğu (hə/yox)<br>100 adama düşən telefonların sayı | |

| | | | |
|---|---|---|---|
| | | Davamlı inkişaf üzrə milli şurada yerli (əsas) xalqların nümayəndəliyi (hə/yox)<br>Milli ənənələr haqda informasiya mövcudluğu (hə/yox)<br>Cəmiyyətin əsas qruplarının davamlı inkişaf üzrə milli şurada nümayəndəliyi (hə/yox)<br>Etnik azlıqların davamlı inkişaf üzrə milli şurada nümayəndəliyi (hə/yox)<br>Davamlı inkişafa aid beynəlxalq sazişlərin təsdiqlənməsi<br>1000 nəfərinə düşən yerli dövlət qulluqçularının sayı | |

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən hazırlanmış başqa bir indikator sistemi də var. Bu indikator sistemi "təzyiq-vəziyyət-reaksiya" modelinə əsaslanır. TVR modeli sosial və ekoloji şərait ,iqtisadi fəaliyyətdə səbəb- nəticə əlaqələrini aydınlataraq qərar qəbul edən şəxslərə bu sahələr arasındakı qarşılıqlı əlaqəni görməyə və qarşılaşdıqları problemlərin həlli etməyə kömək edir.

TVR modelinin mahiyyətini bir neçə sözlə belə ifadə etmək olar. İnsan fəaliyyəti ətraf mühitə “təzyiq” göstərir və təbii sərvətlərin miqdarına və keyfiyyətinə -“vəziyyət”ə - təsir edir;cəmiyyət bu dəyişiklərə təbii mühit, ümumi iqtisadi və sahəvi siyasət vasitəsi ilə və eləcə də ictimai şüurda və davranışda dəyişikliklə reaksiya verir (“təzyiqə reaksiya”).

Davamlı inkişaf indikatorları cəmiyyətin bütün sferalarının – iqtisadi, ekoloji, sosial, ekoloji-iqtisadi,sosial-iqtisadi,sosial-ekoloji fəaliyyətini və onların qarşılıqlı əlaqəsini əks etdirir.

Yuxarıda göstərilən indikatorlar sistemləri ölkələr üçün milli davamlı inkişaf indikatorlarının işlənməsi üçün bir növ nümunədir.Ayrı-ayrı ölkələr bu sistemlərdən istifadə etməklə ölkə daxilində davamlı inkişafı qiymətləndirmək üçün milli indikatorlar sistemini, eləcə də regional indikatorları işləyib hazırlayırlar.

## II fəsil Azərbaycanda davamlı inkişafın təmin edilməsində inkuliziv artımın rolu

### 2.1 İnkulziv artım, mahiyyəti, təmin edilməsi yolları

Zaman keçdikcə həm mütəxəssislər həm də siyasi xadimlər davamlı inkişafın təmin edilməsində sosial bərabərlik, ədalətlilik prinsiplərinin zərurətini daha geniş başa düşürlər. Bu səbəbdən də son dövrdə davamlı inkişafın təmin edilməsində inklyuziv artımın mühüm rolu getdikcə daha çox nəzərə alınır.

Biz Minilliyin İnkişaf Məqsədləri ilə 2015 –ci ildə qəbul edilmiş "Bizim dünyamızı dəyişən 2030-cu ilə qədər davamlı inkişaf gündəliyi" sənədindəki məqsədləri müqayisə etsək görərik ki, 2015 illərdə inkluzivliyin əhəmiyyəti daha çox artıb. Belə ki, Minilliyin İnkişaf məqsədlərinin az bir hissəsi inkluziv artımla əlaqəlidirsə, 2015-ci ildəki sənəddə əks olunan məqsədlərin çoxu inkluziv artımla bağlıdır.

Minilliyin İnkişaf məqsədlərində ifrat yoxsulluğun və aclığın aradan qaldırılması;ümumi təhsil imkanlarının genişləndirilməsi;qadın və kişilər arasında bərabərliyin yaradılması və qadınların hüquqlarının genişləndirilməsi;kimi inkluziv artıma doğru geden məqsədlər qeyd olunub.2015-ci ildə qəbul olunmuş sənəddə isəsəfalətin bütün formalarının hər yerdə ləğv olunması;aclığın aradan qaldırılması, ərzaq təhlükəsizliyinin artıtılması,kənd təsərrüfatının davamlı inkişafına kömək göstərilməsi;sağlam həyat tərzinin yüksəldilməsi və hamı üçün bütün yaşlarda rifah səviyyəsinin yuksəldilməsi;hamı üçün keyfiyətli təhsilin təmin edilməsi və hamı üçün yaşadığı sürədə tədris imkanlarının təşviq olunması;gender bərabərliyinin təmin olunması və qadınların, qızların hüquq və imkanlarının genişləndirilməsi;hər kəs üçün su ehtiyatlarının mövcudluğu və onlardan səmərəli istifadənin və təmizliyin təmin edilməsi;hamı üçün etibarlı ,ucuz,davamlı və müasir enerji təhizatının rahat istifadəsinin təmin edilməsi;davamlı iqtisadi artıma, hər kəs üçün məhsuldar məşğulluq və layiqli işin təmin olunmasına köməklik göstərilməsi;davamlı sənayeləşdirməyə yardım edilməsi, innovasiyalara dəstək;ölkələr daxilində və ölkələr arasında

balanslaşdırılmanın yaradılması;şəhərləri ,yaşayış məntəqələrini həyat qabiliyyətli, davamlı və təhlükəsiz hala gətirmək.İstehsal və istehlakın səmərəli modellərinin təmin olunması;iqlim dəyişikliyi və onun nəticələri ilə mübarizə tədbirlərinin həyata keçirilməsi kimi inkluziv artımla bağlı olan məqsədlər qeyd olunmuşdur.

İnstitutlar, hökümətlər getdikcə "inkluziv artım"-dan danışırdılar.Bu bəzi istiqamətlərdə yalnız iqtisadi artımın prioritetləşdirilməsindəki çatışmazlıqları aradan qaldırmaq cəhdi bəzən isə inkişafın faydalarının daha geniş şəkildə yerinə yetirilməsini təmin etmək cəhdidir. Məqalələrdə inkluziv artımın müzakirəsi bərabərsizlik və yoxsulluğa qarşı mübarizəyə əsaslandırılmışdı.

İnkluziv artımın əhəmiyyəti beynəlxalq təşkilatlarda olduğu kimi inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr arasında əhəmiyyəti getdikcə artır.

Davamlı İnkişaf Məqsədləri üzrə Açıq İşçi Qrupu tərəfindən inkluziv artım bir məqsəd kimi təklif olunmuşdur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) 1990-cı illərdə və onillikdə inkişafa mane olan üç problemi yoxsulluq, bərabərsizlik, işsizliyi araşdırdılar. Bu problemlərin həllini inkişafın kefiyyətinin yüksəldilməsində və ən əsas inkluziv artımda görürdü.

İqtisadi artımı adətən məşğulluğun artması ilə əlaqələndirirlər. Lakin, son illərdə iqtisadi artım məşğulluğun artımına gətərib çıxarmır. Beləliklə, əgər 1980-ci illərdə ÜDM-in 3% artımı məşğulluğun 1% artımına gətirib çıxarırdırsa, 1990-cı illərdə isə ÜDM-in yalnız 8% artımı məşğulluğun 1% artırılmasına gətirib çıxarırdı.

Hal-hazırda yoxsullarla zənginlərin arasındakı yüksək fərq hər yerdə yaranır. Məsələn, İƏİT ölkələrində 30 ilində bu göstəricilər ən yüksəkdir. Dünya Bankının araşdırmasına əsasən, gəlirlərin bir faiz artımı aşağı bərabərsizliyə malik ölkələrdə yoxsulluğun 4,3% azaldılmasına, yüksək qeyri-bərabərliyə malik olan ölkələrdə isə yalnız 0,6%azadılmasına səbəb olur.

Bərabərsizlik iqtisadi və siyasi qeyri-sabitlik ilə yaxından bağlıdır. Yuxarıda göstərilən problemləri həll etmək üçün təklif olunan tədbirlər arasında,xaricdə

geniş yayılmış, inklüziv davamlı artım konsepsiyası (inclusive sustainable growth) aiddir.

Onun əsas müddəaları bir çox alimlər tərəfindən hazırlanmışdır. Bu müddəalar xüsusən Nobel mükafatı laureatı M. Spensin rəhbərlik etdiyi və 2008-ci ildə «The growth report Strategies for Sustained Growth and Inclusive Development» hesabatını verən İnkişaf üzrə Komissiya üzvləri tərəfindən hazırlanmışdır.

İnklüziv artım konsepsiyası geniş mütəxəssis dairəsi tərəfindən tez bir zamanda qəbul olunmasına baxmayaraq, bu gün "inkluziv artım" konsepsiyasının vahid tərifi yoxdur. Dünya Bankı inklyuziv artımı iqtisadiyyatın bütün sahələrində genış şəkildə yayılmış, işlərinin əhəmiyyətli bir hissəsini əhatə edən və bazar və resurslara bərabər çıxış imkanları ilə xarakterizə edilən yüksək və davamlı (yoxsulluğun azaldılması üçün vacib şərt) artım kimi müəyyənləşdirir. Bu tərifdə əsas diqqət - gəlirlərin paylanmasından daha çox, qadınların da daxil olduğu bütün əhali qrupları üçün məhsuldar məşğulluğa yönəlib. Avropa Komissiyası "Avropa 2020" strategiyasını hazırladığı zaman, inklüziv artıma aşağdakıların daxil olduğunu müəyyən edir: əmək potensialının tam istifadəsi, yoxsulluğun və onun nəticələrinin azaldılması, sosial inkişaf, regional bərabərsizliklərin aradan qaldırılması.

Zəruri şərt kimi infrastrukturun sabitliyinə xüsusi diqqət yetirməklə iqtisadiyyatın müxtəlif sahələrin inkişafına cəlb edilməsi vacibdir.

İnkluziv artımından danışarkən biz onun əsas məğzini qeyd etməliyik:

- Daha böyük hədəflər (təkcə gəlirlərin və ya ÜDM-nin artımı nəzərdə tutulmur) ;
- İnsan kapitalının hərtərəfli inkişafı;
- Bərabərsizliyin və yoxsulluğun azaldılması;
- Iqtisadi həyatın fəal iştirakının vacibliyi (yalnız gəlirlərin paylanmasında deyil);
- Əhalinin, xüsusilə də qadınların, yaşlıların geniş təbəqələrinin faydaları;
- Təbii ehtiyatlardan səmərəli istifadə və qorunması mühit.

Müasir sivilizasiyanın qarşısında duran əsas problemlər baxımından sosial-iqtisadi inkişafın adekvat modellərinin axtarışında inkluziv artım konsepsiyasına xüsusi diqqət yetirmək olar.

Ekspertlərin fikrincə, Dünya İqtisadi Forumunun "Qlobal Risklər 2015" hesabatında əks olunmuşdur: geosiyasi- sosial, iqtisadi, ekoloji aspektlər mühüm rol oynayırlar.

Bunların arasında Orta Asiyada işsizlik, iqlim dəyişikliyi riskləri, qlobal epidemiyalar və su çatışmazlığı ilə əlaqədar böhranlar nəzədə tutulur.

Bu vəziyyətdə, ekspertlərin fikrincə, gələcəkdə təhlükə yaradan bu cür böhranlar insanlıq üçün ən ağır nəticələr.

Gələcəkdə təhlükə yaradan bu cür böhranlar baxımından ekspertlər beş əsas qlobal riski qeyd edirlər. Bu riskləri baş vermə ehtimalı azalan qaydada qeyd edək:

1. Regional münaqişələrlə dövlətlərarası münaqişələr (geosiyasi risklər).

2. Ekstremal hava hadisələri (ekoloji risklər).

3. Dövlət idarəetməsinin problemləri (geosiyasi risklər).

4. dövlətçiliyin parçalanması vədövlət qurumlarının böhranı (geosiyasi risklər).

5. Struktur işsizliyin və ya işsizliyin yüksək səviyyəsi (iqtisadi risklər).

Qlobal təsirlər baxımından beş aparıcı qlobal riskləri azalan qaydada qeyd edək.

1. Su çatışmazlığı ilə əlaqədar olan böhranlar (sosial risklər).

2. Yoluxucu xəstəliklərin kütləvi yayılması, qlobal epidemiyalar (sosial risklər).

3. Kütləvi qırğın silahları və terror hücumlarının yayılması (geosiyasi risk).

4. Regional münaqişələrlə dövlətlərarası münaqişələr (geosiyasi risklər).

5. İqlim dəyişikliyinə uyğunlaşma problemləri (ekoloji risklər).

Bu cür risklərin azadılması və davamlı inkluziv artıma doğru hərəkət etmək üçün beynəlxalq reytinqlərdə geniş istifadə olunan göstəricilər analiz edilir.

Məsələn, 2014-2015-ci illər üçün Qlobal Rəqabətlilik Hesabatındakı ətraf mühit və sosial faktorlar sabit inkişafa səbəb olur. Onlar aşağıdakı qruplara bölünür:

Cədvəl 2

Sosial və ekoloji davamlılığın göstəriciləri

| Sosial davamlılığın parametrləri | Ekoloji davamlılığın parametrləri |
|---|---|
| Əsas ehtiyaclara çıxış (kanalizasiya, içməli su, sağlamlıq) | Ətraf mühit siyasəti (sərt və tədbirlərin həyata keçirilməsi)ətraf mühit tənzimləməsinin təsdiqlənmiş sayı beynəlxalq ekoloji sazişlər, torpaq qorunması ekosistemlər) |
| Sosial-iqtisadi inkişafın zəiflik dərəcəsi(işin itirilməsi, kölgə iqtisadiyyatının həcmi) | Yenilənə ehtiyatların istifadəsi (meşə iləəhatə olunmuş ərazilər, artıq balıqçılıq, su qaynaqları) |
| Sosial birlik (Gini indeksi, sosial mobillik, işsizlik nisbəti arasında gənclər) | Ətraf mühitin deqradasiyası (atmosferdə konsentrasiya aerodinamik partikül maddə, karbon dioksid emissiyasının intensivliyi qaz, ətraf mühitin keyfiyyəti |

Xüsusi sosial qruplara təsir konsepsiyasının müəyyənləşdirilməsi nisbi qarışıqlıq ilə izah edilə bilər. Həqiqətən, bu cür təsir iki fərqli şəkildə şərh edilə bilər: i) müxtəlif normativ müddəaların müxtəlif sosial qruplara təsirinin necə bölüşdürülməsi; ii) həssas sosial qruplara və bərabərsizlik probleminə xüsusi təsir göstərmişdir. Birinci təsir növü tənzimləyici təkliflərdən ən çox təsirlənən qruplar üçün nəticələrin sadə göstəricisini əks etdirir (qalib və zərər çəkənlərin tərifi). İkincisi, "bərabərlik" anlayışını əhatə edir və inklüziv böyümənin paradiqmasına sıx bağlıdır.

Gender bərabərliyinə təsir qiymətləndirməsini birləşdirmək üçün müxtəlif yollarla məlumat toplamaq üçün 2011-ci ildə OECD(Organisation for Economic

Cooperation).Tənzimləmə Siyasəti Komitəsinin (PSC) nümayəndələri arasında sorğu keçirdi. Anket zamanı alınan cavablar, əksər ölkələr ən azı formal səviyyədə ODS(Operational data store) prosesində kişilərin və qadınların bərabərliyinə təsirini qiymətləndirdi. Bununla belə, eyni cavablar belə bir qiymətləndirmənin tezliyi, xüsusilə gender təhlili nəticəsində ortaya çıxan siyasət qərarlarının dəyişməsi ilə bağlı kifayət qədər kiçik olduğunu göstərdi. Bir sıra ölkələr, gender tənzimləməsinin tətbiqindən tənzimləyici çərçivədə lazımi dəyişiklikləri qiymətləndirə bilmədiklərini ifadə etdilər. Digər ölkələr iddia edirlər ki, ODS prosesində gender təhlili daxilolma məlumatlılığı artıran və hakim dairələrdə bu məsələ ilə bağlı dialoqa yardım göstərmişdir.

Bəzi ölkələrdə gender bərabərliyi üzrə təsir qiymətləndirməsini ODS-ə əlavə olaraq ayrı bir analiz kimi tətbiq etmək qanuni tələb olunur. Bu, məsələn İsveç və Avstriyada istehsal olunur:

İsveçdə cinsi təhlili qanun layihəsinin hazırlanma mərhələsinin və hazırlıq prosesinin bir hissəsi kimi həyata keçirilir və bütün proses üçün cavabdehdirlər. Təhlil gender bərabərliyinin siyasi məqsədləri ilə əlaqədar həyata keçirilir, beləliklə, qiymətləndirmə gender bərabərliyi məqsədlərinə nail olmaq və ya onu maneə törətməkdə olub-olmadığını müəyyənləşdirmək üçün qiymətləndirmə aparılır.

Avstriyada, tənzimləmə gender bərabərliyinə təsirinin hesablanması Avstriya Nazirlər Şurası tərəfindən təsdiq edildikdən 2004-cü ildən bəri məcburidir. Qiymətləndirmə ODS sorğusuna paralel olaraq ayrıca suallar qrupuna cavab şəklində həyata keçirilir. Bu cür gender təhlili, müəyyən tənzimləmə növləri üçün, yəni Avstriyada tənzimlənmənin əsas hissəsini təşkil edən qanun və qaydalar üçün tələb olunur.

İspaniyada gender bərabərliyinə təsirlərin qiymətləndirilməsi ODS sənədinin xüsusi bölməsində həyata keçirilir və bu, hökumət tərəfindən qəbul edilən hər hansı qaydalara uyğun olmalıdır. Gender bərabərliyinə təsirlərin qiymətləndirilməsi fərdi vətəndaşlara tətbiq olunan bütün siyasət tədbirləri üçün həyata keçirilməlidir.

Türkiyədə gender bərabərliyinə təsir 2000-ci ildə ODS prosesinin bir hissəsi olmuşdur. Gender bərabərliyi məsələləri üzrə mümkün nəticələrin müəyyənləşdirilməsində müvafiq dövlət orqanları və nazirliklər dərslikdə müəyyənləşdirilmiş xüsusi suallara cavab verməlidirlər.

Fransada gender bərabərliyinə təsir ODS-də öyrənilmək üçün lazım olan ən çox təsirlərin siyahısına daxil edilir. Bu element cəmiyyətə təsir sahəsindəki "Kişi və qadınlara bərabərlik və ayrı-seçkiliyin azaldılması" bölməsində nəzərə alınır.

Macarıstanda gender bərabərliyinə təsir ODS-in ayrı bir elementi deyil, cəmiyyətə təsir etmək üçün daha geniş ODS-in bir hissəsi hesab olunur.

Yaponiyada gender bərabərliyinə təsir ictimaiyyətə və iqtisadiyyata geniş mənada təsir edən bir fakt hesab edilə bilər. Bu təsir növü daha geniş təhlilin elementi sayılır, buna görə də ayrı-ayrı testlər aparılmır.

Müəllif Kolumbus İqtisadi Forumu tərəfindən Dünya İqtisadi Forumu üçün yaradılan qeyri-rəqabətqabiliyyətin əsas göstəricisini (GCI) əlavə edildi.

Müqayisəli, hərtərəfli və əhatəli təşkilati elementlərin, OESR-in spesifikliyinin daxil edilməsi "İnklüziv Rost İnnovasiya və İnnovasiya" layihəsi çərçivəsindədir. Əhəmiyyətli təlimat ayrıseçkilik əleyhinə yönəldilmişdir. Proqram qərarları dövlət və dövlətlərarası səviyyəyə əsaslanır, bu da hərtərəfli konsepsiyasına əsaslanır. Belə proqramlardan biri Avropa Birliyinin 2010-cu ildə qəbul edilmiş "Avropa 2020", onillik strateji proqramıdır. Bu proqram təkcə 2008-2009-cu illərdə baş vermiş nigaranlıqların aradan qaldırılmasına qarşı mübarizənin həyata keçirilməsinə yönəlməmişdir.Həm də Avropa İttifaqı, 2020-ci il Avropa Şurasının bu məsələyə ehtiyacı var bütün müvafiq prosesləri nəzərə alaraq iqtisadiyyatın sektoru, bütün cəmiyyət üçün intellektual, dayanıqlı və əhatəli bir şəkildə inkişaf həyata keçirir.Bu proqramların əsas məqsədləri Avropa Birliyini hər bir üzvünü Müstəqil Dövlətlər bir hissəsi halına gətirməkdir.

Aşağıdakı sahələrdə aşağıdakı prioritetlər müəyyən edilmişdir: iş şəraiti, yenilik, iqlim dəyişikliyi və enerji, təhsil, borc böhranı və sosial narazılıq. Aşağıdakı istiqamət, tanıtım tətbiqini xarakterizə edən bəzi parametrlərdir:

- 20-64 yaş arasında əhalinin məşğulluq səviyyəsi 75%-ə çatdırılması;

- Tədqiqat və inkişafa investisiya səviyyəsinin 3% -ə qədər artırılmasıdır ;
- 1990-cı ilə qədər istixana qazı emissiyalarının 20% -ə (30% -ə qədər) azaldılması və bərpa olunan mənbələrin istehlakının 20% -ə qədər olan ümumi istehlakına, 20% -ə qədər enerji səmərəliliyinə dah da artması ;
- Orta məktəblərdən çıxarılma halların 10% -ə qədər azadılması, üç pilləli təhsili olan 30-34 yaşlı əhalinin sayının 40 %-ə qədər artırılması;
- Sosisal vəziyyəti pis olan, yoxsulluğa doğru gedən əhalinin sayının 20 milyona qədər azadılması.

Qeyd etmək lazımdır ki, məqsədlər olduqca konkretdir və onların həyata keçirilməsini aşağıdakı prioritetlər asanlaşdırır.Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün aşağıdakı 7 fəaliyyət istiqaməti prioritetlər olaraq irəli sürülür:

1. "İnnovasiya Birliyi".

Malların və xidmətlərin istehsalında innovasiya ideyalardan istifadə etməyə imkan verən yenilikləri yaratmaq və tətbiq etmək üçün səylər göstərmək. Bu, yeni iş yerləri yaratmaq və iqtisadiyyatın inkişafına kömək edəcəkdir.

2. "Gənclər Hərəkatı". Təhsilin keyfiyyətinin yaxşılaşdırılması. Gənclərin əmək bazarına cəlb edilməsi.

3. "Avropada rəqəmsal texnologiyaların inkişafı". Yüksək sürətli İnternetdən hərtərəfli istifadəni sürətləndirmək və fiziki və hüquqi şəxslər ümumi rəqəmsal kommersiya məkanında iştirak üçün imkanlar yaratmaq.

4. "Avropada resursların lazımi istifadəsi". Enerji mənbələrinin səmərəli istifadəsi, karbohidrogen xammalının az istehlakı ilə iqtisadiyyata keçid. Yenilənə enerji mənbələrinin istifadəsinin artması. Nəqliyyat sektorunun müasirləşdirilməsi.

İstehlak resurslarının miqdarına iqtisadiyyatın artımından asılı olaraq azalıb.

5. "Qloballaşmaya yönəlmiş sənaye siyasəti". Xüsusilə kiçik və orta biznes üçün inkişaf etmiş şərtlər. Hər yerdə qloballaşma üçün güclü və davamlı sənaye bazasının inkişaf etdirilməsi.

6. "Yeni qabiliyyətlərin inkişaf etdirilməsi və iş yerlərinin artırılması planı". Əmək bazarlarının modernləşdirilməsi. Əmək qabiliyyətinin artırılması.Məşğulluq

imkanlarını artırmaq üçün yeni bilik və bacarıqların əldə edilməsi üçün imkanların təmin edilməsi.

7. "Yoxsulluğa qarşı Avropa siyasəti". Avropa İttifaqı daxilində iqtisadi inkişaf yolu ilə məşğulluq və yoxsulluğun azaldılması.

Hal-hazırda, müəyyən hədəflərin yerinə yetirilməsinin əhəmiyyətli çətinliklərlə üzləşdiyini söyləmək olar. Ancaq 2013-cü ilin nəticələrinə görə, bütün istiqamətlərdə irəliləyişlər qeyd olunur. Proqramın aralıq nəticələri Cədvəl 3-dəverilmişdir.

Cədvəl 3

Strateji hədəflərin həyata keçirilməsi

«Avropa 2020»

| Məqsədlər | Nəticələr |
|---|---|
| 20-64 yaş arasında əhalinin məşğulluq səviyyəsinin 75%-ə çatdırılması. | 69.2% (2014) |
| Araşdırmalaravə inkişafa artan investisiyalarAvropa İttifaqının ÜDM-in 3% -ni təşkil edir. | 2.11% (2014) |
| İstixana qazı emissiyalarının 20% azalması (bəlkə də 30% səviyyəsində). | 17,9% (2012) |
| - Orta məktəblərdən çıxarılma hallarıın 10%-ə qədər azadılması. | 11,2% (2014) |
| Üç pillələtəhsiliolan 30-34 yaşlı əhalinin sayının 40 %-ə qədər artırılması. | 37,9% (2014) |
| - Sosisalvəziyyətipisolan, yoxsulluğa doğru gedən əhalinin sayının 20 milyona qədər azadılması. | 2 milyon (2014) |

Bu əsasən Avropa İttifaqı ölkələrinin iqtisadi inkişaf səviyyələri arasındakı artan fərqlə bağlıdır. Məsələn, Yunanıstanda 20-64 yaş arasında əhalinin məşğulluq səviyyəsi 52,9%, İsveçdə isə 79,8% təşkil edir.

Buna baxmayaraq,"Avropa2020" strategiyasının həyata keçirilməsi və bu məqsədlərin mümkün tənzimlənməsi ilə bağlı ictimai məsləhətləşmələr aparılır. Qeyd etmək vacibdir ki, bu hədəflərə əsasən hər bir Avropa İttifaqı üçün ayrı-ayrılıqda meyarlar hazırlanmışdır. Onlar bir-biri ilə əlaqəli və qarşılıqlı tamamlayıcıdır:

- Təhsilin təkmilləşdirilməsi iş tapmaqda kömək edir və yoxsulluğun azaldılması ilə nəticələnir;

- Resursların daha səmərəli bölüşdürülməsi ilə birgə tədqiqat və inkişafa investisiya səviyyəsinin artırılması Avropa İttifaqı ölkələrinin iqtisadiyyatlarını daha rəqabətli edir və iş yerləri yaradır;

- Yaşıl texnologiyalara sərmayələr iqlim dəyişikliyi ilə mübarizə aparır, yeni iş imkanları yaradır.

Bu strategiyanın fərqli bir xüsusiyyəti strateji məqsədlərin həyata keçirilməsinin iki mərhələyə bölünməsidir:

**Birinci mərhələ** - 2016-2020. Əsas məqsəd iqtisadiyyatın struktur və institusional transformasiya əsasında, balanslaşdırılmış inkişafa keçid, yaşıl iqtisadiyyat prinsiplərini, yüksək texnologiyalı sənaye sahələrinin prioritetini nəzərə alaraq, ölkənin rəqabət qabiliyyətini və əhalinin həyat səviyyəsini artırmaq olacaqdır.

**İkinci mərhələ** - 2021-2030. Əsas məqsədi mənəvi dəyərlərin artmasına və insan inkişafının yüksək keyfiyyətinə nail olmağa, bilik-intensiv sənayelərin və xidmətlərin sürətlə inkişafının təmin olunmasına, sabit inkişaf sabitliyini təmin olunmasina yönəlib.

Bu strategiya çərçivəsində beş prioritet istiqamətləri var:

- İnsan potensialının keyfiyyətinin bərpası və səmərəli istifadəsi

(hədəf meyarı olaraq insan inkişafının reytinqi: insan inkişafı yüksək səviyyədə olan ilk qırx ölkəyə daxil olmaq.);

- yüksək texnologiyalı sənaye və xidmətlərin sürətli inkişafı (ölkənin rəqabətqabiliyyətliliyinin hədəf meyarı kimi,informasiya iqtisadiyyatı indeksində ilk otuz ölkələrə daxil olmaq.Keyfiyyətli struktur dəyişikliklərinin meyarları aşağıdakılardır: 2030-cu ilə orta əmək səviyyəsində orta səviyyəli əmək məhsuldarlığında iki dəfə azalma; yüksək səviyyəli bilik sektorunun ÜDM-də payının artırılması (2030-cu ildə 8-10% -ə qədər); 2016-2030-cu illərdə ÜDM-in enerji intensivliyinin azaldılması. - 35%);

- İnstitusional mühitin yaxşılaşdırılması və əlverişli biznes mühitinin formalaşdırılması;

- ixrac potensialının artması (bu prioritetin həyata keçirilməsi meyarları dünya bazarında ölkələrin mallarının payının artması və mal və xidmətlərdə xarici ticarətin profisitə çıxmasıdır);

- İstehsalın yaşıllaşdırılması və ekoloji təhlükəsizliyin təmin edilməsi.

Bu baxımdan, yenilik əsaslı inkluziv artıma doğru hərəkət etmək üçün ,yeni yanaşmaların inkişaf etdirilməsi üçün mövcud iqtisadi modeli davamlı inkişaf etdirməyin vacibliyini vurğulamaq istərdim.

Dünyada sosial iştirakın genişləndirilməsindən, iqtisadi inkişafın üstünlüklərindən böyük bir siyasi problem yoxdur.

## 2.2 Azərbaycanda davamlı inkişafa nail olmanın cari vəziyyəti

Azərbaycanda inklyuziv artımın təmin olunması istiqamətində sistemli tədbirlər həyata keçirilir. İnklüziv artım indeksinə görə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerə yüksəlib. “İnklüziv artım və inkişaf – 2018” hesabatda inklüziv artım indeksinə əsasən ölkələr beş kateqoriyaya görə bölünüb. Sabit ölkələr sırasında Azərbaycan yer alıb. Azərbaycan 4,69 balla Litvadan 4,86 və Macarıstandan 4,74 geridədir.

İnklüziv artım və inkişaf 2018” hesabatda inklüziv artım indeksinə görə Azərbaycanın və digər ölkələrin tutduğu yerlər cədvəl 4-də verilmişdir

Cədvəl 4

İnklüziv İnkişaf İndeksi (IDI) Üst Performansı olan ölkələrin siyahısı.

| İnkişaf etmiş ölkələr | Ümumi IDI göstəricisinə görə | İDİ dərəcəsinə görə | İnkişaf etməkdə olan ölkələr | Ümumi IDI göstəricisinə görə | İDİ dərəcəsinə görə |
|---|---|---|---|---|---|
| Norveç | 6.08 | 1 | Litva | 4.86 | 1 |
| İslandiya | 6.07 | 2 | Macarıstan | 4.74 | 2 |
| Lüksemburq | 6.07 | 3 | **Azərbaycan** | 4.69 | 3 |
| İsveçrə | 6.05 | 4 | Latviya | 4.67 | 4 |
| Danimarka | 5.81 | 5 | Polşa | 4.61 | 5 |
| İsveç | 5.76 | 6 | Panama | 4.54 | 6 |
| Niderland | 5.61 | 7 | Xorvatiya | 4.48 | 7 |
| İrlandiya | 5.44 | 8 | Uruqvay | 4.46 | 8 |
| Avstraliya | 5.36 | 9 | Çili | 4.44 | 9 |
| Avstriya | 5.35 | 10 | Ruminiya | 4.43 | 10 |

ÜDM-nin alternativi olaraq işlənib-hazırlanmış inklüziv artım indeksi insanların ölkələrində iqtisadi inkişafı qiymətləndirdikləri göstəriciləri daha aydın və dəqiq əks etdirir.

Onu da qeyd etmək lazımdır ki, inklüziv artım indeksi yoxsulluq, təhsil,səhiyyə, gender bərabərliyi və.s kimi müvafiq göstəricilər üzrə hazırlanır. Dünya İqtisadi Forumu sərvətin və gəlir paylanması, yoxsulluğun səviyyəsi üzrə araşdırır.

Yuxarıda qeyd edildiyi kimi, inklüziv artım indeksi gəlir,yoxsulluq, səhiyyə və davamlılıq,müvafiq göstəricilər üzrə hazırlanır. Son illərdə Azərbaycanda da qeyd olunan məsələlərlə, əsasən də yoxsulluğun azaldılması ilə əlaqədar ciddi islahatlar həyata keçirilib və müsbət göstəricilər ilə nəticələnib. Məsələn , Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-cı il 21 yanvar tarixli sərəncamı - "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" və "Minimum aylıq əmək haqqının artırılması haqqında" əsasında ölkəmizdə

əhalinin gəlirlərinin artırılması və sosial müdafiəsinin təmin olunması istiqamətində tədbirlərin cari ildə də həyata keçirildiyinin əyani təzahürüdür.

Əvvəlki illərdə dövlət başçısının imzaladığı sərəncamların və fərmanların, təsdiq etdiyi dövlət proqramlarının nəticəsi olaraq Azərbaycanın dayanıqlı və hər tərəfli sosial-iqtisadi inkişafı təmin olunub.

Sosial- iqtisadi tədbirlər əsasında yaşayış səviyyəsi yaxşılaşdırılıb, bu, pensiyaların 8, faiz əmək haqlarının isə 7 faiz artımı ilə müşahidə olunur.

"Əmək pensiyalarinin sığorta indeksləşdirilməsi" və "Minimum əmək haqqının artırılması" haqqında 2017-cı il 21 yanvarında sərəncamlar da bu məqsədlə qəbul edilmişdir.

Ölkəmizdə 2006-cı il yanvarın 1-dən həyata keçirilən müasir pensiya-sığorta sistemi bazar iqtisadiyyatı olan ölkələrdə vətəndaşların pensiya ilə təmin olunma hüquqlarının müdafiəsi üçün hər ildə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsiniön planda tutur. Bunun nəticəsi olaraq istehlak qiymət indeksinin illik səviyyəsinə, yəni inflyasiyaya əsasən indeksləşdirmə aparmağın nəticısindəil-ildən əmək pensiyalarının artımı müşahidə olunur. Azərbaycan Respublikasının Prezidenti əmək pensiyalarının sığorta indeksləşdirilməsi ilə əlaqədar 11 sərəncam imzalayıb ki, həmin sərəncamların nəticəsiolaraq pensiyalarda davamlı olaraq artımlar müşahidə olunur.

Sosial təminat da inklüziv artım indeksində əsas yer tutur.Azərbaycanda etibarlı sosial müdafiəni təmin etmək məqsədi ilə"2009–2015-ci illərdə Azərbaycan Respublikasında pensiya-sığorta sisteminin inkişafına dair Dövlət Proqramı" pensiya-sığorta sisteminin inkişafı üçün məqsədyönlü tədbirlərin həyata keçirilir. Gələcəkdə pensiya-sığorta sisteminin daha da inkişaf etməsi məqsədi ilə 2016–2020-ci illər yeni Dövlət Proqramı hazırlanacaq.Həyata keçirilən tədbirlərin nəticəsi olaraq pensiya-sığorta sistemi getdikcə daha çox inkişaf edəcək, könüllü sosial sığortaların tətbiqi ilə əlaqədar məsələlər öz həllini tapacaqdır.Sosial təminatın Azərbaycandakı cari vəziyyətini statistik göstəricilər əsasında cədvəl şəkilində göstərilmişdir:

Cədvəl 5

Sosial yardım, təqaüd və kompensasiya alanlar

| Göstərici | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Sosial yardım, təqaüd və kompensasiya alanlar **şəxslərin sayı** (*min nəfər*) | 317.1 | 316.4 | 338.2 | 350.9 | 368.8 |
| **Təqaüd alanların sayı** (*min nəfər*) | 35.2 | 35.0 | 51.6 | 54.6 | 57.8 |

Pensiya alanlar

| Göstərici | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Pensiyaçıların sayı** (*min nəfər*) | 1272.0 | 1277.0 | 1291.0 | 1299.9 | 1315.2 |

Statistik göstəricilərdən göründüyü kimi həm təqaüd həm də kompensasiya, pensiya alan şəxslərin sayı arıtır. Bu onunla nəticələnir ki, əhalinin sosial vəziyyətinin ,rifahının yüksədilməsinə müsbət təsir göstərir.

Cədvəl6

Sosial yardım , təqaüd və kompensasiyaların məbləği (AZN)

| Göstərici | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Bir nəfər üçün aylıq kompensasiyalar və müavinətlərin məbləği** (*manat*) | 44.4 | 49.6 | 50.6 | 50.7 | 56.3 |
| **Bir nəfər üçün aylıq təqaüdün məbləği** (*manat*) | 116.9 | 134.5 | 125.8 | 120.9 | 132.0 |

Pensiyaların məbləği(AZN)

| Göstərici | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Aylıq olaraq pensiyaların orta məbləği** (*manat*) | 152.0 | 170.5 | 173.4 | 177.6 | 192.2 |

Həyata keçirilən məqsədəyönlü tədbirlərin nəticəsində Azərbaycanda əhalinin sosial müdafiəsinin təminatı və ailə gəlirlərinin artırılması halları müşahidə olunur. Bu da öz növbəsində yoxsulluğun azadılmasında öz əksini tapır.

Bundan əlavə, inklüziv artım indeksində ön planda olan  səhiyyənin inkişafına da xüsusi diqqət yetirilib. 2004-cü ildənbu günümüzə qədər altı yüzdən çox tikilmiş və yaxud təmir olunmuş tibb olacaqları buna bir nümunədir.

Azərbaycanda davamlı inkişafa nail olmanın cari vəziyyətini daha ətraflı araşdıraraq öyrənmək üçün  inklüziv artım indeksindəki göstəricilərin statistik məlumatlarına nəzər salaq.

Cədvəl 7

**Ölkə  gəlirlər(ayda adambaşına, manatla)**
**və əhalinin yaşayış səviyyəsi üzrə göstəricilər**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Sahibkarlıq fəaliyyətindın gələn gəlirlər (manat) | 61.2 | 63.9 | 66.7 | 67.6 |
| Kənd təsərrüfatından gəlirlər (manat) | 30.6 | 32.1 | 33.9 | 34.7 |
| Sosial yardımlar  və m üavinət (manat) | 3.8 | 3.9 | 4.1 | 4.3 |
| Pensiyalar (manat) | 30.9 | 32.2 | 34.7 | 36.5 |
| Digər gəlirlər (manat) | 24.5 | 26.0 | 27.8 | 28.4 |

Bu  cədvəldən göründüyü kimi həm kənd təsərrüfatından, həm də, sahibkarlıq fəaliyyətindən gələn gəlirlər, eləcə də insanların yaşaması üçün yardım məqsədi ilə verilən müavinət, sosial yardımlar və digər gəlirlərin artımı baş verib.Bu göstəricilərin  nəticəsi olaraq qeyd edim ki, Azərbaycanda  inklüziv artım indeksində başlıca yer tutan yoxsulluq aradan qaldırılır.

İnklüziv artım indeksində əsas yerlərdən birini də səfalətin, aclığın aradan qaldırılmasıdır.Yəni təbii resurların, hər kəsin tələbatı olan ərzaqların, hər kəs üçün əlçatan olması önəmlidir.Hər bir ölkənin,bölgənin ərzaq təhlükəsizliyi ilə təmin olunması aclığın, səfalətin aradan qaldırılmasına müsbət təsir edir.

Yuxarıda qeyd edildiyi kimi, inklüziv artım indeksində səhiyyənin inkişafına da xüsusi diqqət yetirilib.

Səhiyyənin inkişafı ilə əlaqədar Azərbaycandakı cari vəziyyəti statistik göstəricilər əsasında qeyd edilmişdir:

Cədvəl8

Səhiyyənin əsas göstəriciləri

| Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Xəstəxana müəssisələri (ədəd) | 539.0 | 553.0 | 566.0 | 559.0 | 569.0 |
| Xəstəxana çarpayıların sayı (min ədəd) | 43.2 | 44.1 | 46.4 | 44.9 | 45.3 |

Statistik göstəricilərdən göründüyü kimi, tibb ocaqlarının sayının artıtılması, həmin tibb ocaqlarının tibbi levazimatları ilə təminatının artırılması Azərbaycanda səhiyyənin inkişafına müsbət təsir göstərir.

Inklüziv artım indeksində digər əsas göstəricilərdən biri də təhsilin inkişaf götəriciləridir.

Azərbaycanda təhsilin cari vəziyyetini statistik göstəricilər əsasında qeyd edilmişdir:

Cədvəl9

Ali təhsil müəssisələrinin göstəriciləri (tədris ilinin əvvəlinə)

| Göstəricilər | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|
| **Ali təhsil müəssisələri** (*ədəd*) | 52.0 | 52.0 | 53.0 | 54.0 | 55.0 |
| **Ali təhsil müəssisələrində tələbələr** (*nəfər*) | 145584.0 | 151274.0 | 158212.0 | 161234.0 | 163779.0 |
| **Qəbul olan tələbələr** (*nəfər*) | 33327.0 | 35370.0 | 35801.0 | 33645.0 | 36126.0 |
| **Ali təhsil müəssisələrinin məzunları olmuş mütəxəssislərin sayı** (*nəfər*) | 35128.0 | 33758.0 | 32826.0 | 33705.0 | 36951.0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Məzun olan mütəxəssislərin magistr diplomu alanlar** (*nəfər*) | 3600.0 | 3390.0 | 3909.0 | 4720.0 | 5813.0 |

Təhsil sahəsinə ayrılan ümumi vəsaitlərin cəminin ÜDM-dəki payının hər il artımı müşahidə olunur ki, bu da iqtisadi cəhətdən inkişaf edən ölkələrin göstəricisi səviyyəsinəçatdırılacaqdır. Təhsilin inkişafı üçün stimullaşdırıcı sistemlər, mexanizimlər yaradılacaq, xüsusən də,adambaşına düşən maliyyələşdirmə proseslərinin, həmtəhsil sferasında tətbiqi edilən tədqiqatların, həm də innovativ fəaliyyəti stimullaşdıran qrant maliyyələşdirməsinin həyata keçirilməsi genişləndiriləcəkdir.

Inklüziv artım indeksində gender bərabərliyi davamlı inkişafın məqsədləri olaraq ön plandadır.Azərbaycanda gender bərabərsizliyinin ardan qaldırılması məsələsi diqqət mərkəzində qalacaq və həlli istiqamətinə uyğun olaraq tədbirlər həyata keçiriləcək.

Konsepsiyanın əsas məqsəd və hədəflərindən biri ekoloji cəhətdən güclü sosialiqtisadi inkişafdır.

Meşələrin və onların bərpasının torpaq sahələrində payının artırılması üçün tədbirlər həyata keçiriləcək.Nəqliyyatların havanı çirkləndirilməsinin qarşısının alınması məqsədi ilə yol kənarında qoruyucu yaşıllıqlar salınacaq.Azərbaycandakı cari vəziyyətə nəzər salaq:

**Cədvəl10**

**Meşə ehtiyyatları**

| Göstərici | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| **Milli parklara çəkilən xərcləri** (*min manat*) | 1786.3 | 1905.1 | 1862.7 | 2235.1 |
| **Qoruqların saxlanmasına çəkilən xərcləri** (*min manat*) | 1136.4 | 1195.3 | 1303.4 | 1374.8 |

Statistik göstəricilərdən göründüyü kimi, milli parkların, qoruqların baxılması, qorunması üçün xərclər artırılır.Bu da ekoloji baxımdan müsbət təsir göstərir.

Cədvəl 11

Su resurlarından istifadə

| Göstərici | 2014 | 2015 | 2016 |
|---|---|---|---|
| **Təbii mənbələrdən götürülən su** (*milyonkubm*) | 12123.0 | 12285.0 | 12504.0 |
| **Su istehlakı** (*milyon kubm*) | 8115.0 | 8566.0 | 8824.0 |
| **Nəql edilərkən sərf edilən su** (*milyonkubm*) | 4008.0 | 3718.0 | 3680.0 |

Cədvəl 12

**Təbiətin qorunması üçün çəkilən xərclər**

| Göstərici | 2014 | 2015 | 2016 |
|---|---|---|---|
| **Təbiətin qorunması üçün çəkilən xərclər** (*minmanat*) | 283414.6 | 136208.3 | 155817.2 |
| **Qoruq və milli parkların ,heyvanların, balıqların qorunmasına və çoxaldılmasına çəkilən xərclər** (*minmanat*) | 6151.9 | 5949.8 | 6777.6 |
| **Meşə təsərrüfatına çəkilən xərclər** (*minmanat*) | 12829.4 | 11530.7 | 12126.2 |
| **Ətraf mühitin və təbii resusların qorunması və effektiv istifadəsi üçün kapitala yönəldilmiş vəsait** (*minmanat*) | 216933.9 | 84864.4 | 109546.0 |

## 2.3 Azərbaycanda inkluziv artımın təmin edilməsi perspektivləri

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində ölkəmizdə davamlı iqtisadi artıma əsasən iqtisadiyyatın inkluzivliyini,rəqabət qabiliyyətliyini və sosial rifahın əvvəlkindən daha da artırılması üçün təsirli tədbirlər nəzərdə tutulmuşdur.

Bu sənəddə qısa və uzunmüddətli dövrləri, 2020-ci ilə qədər iqtisadi artım əsasında tədbirlər planı, 2025-ci ilə qədər olan dövrə görə uzunmüddətli baxış və 2025-ci ildən sonra olan dövr üçün hədəflərdən ibarətdir.

Davamlı inkişafı təmin edən sahələrin üzərində fokuslanmaqla, emalın hasilata nisbəti, özəl sahibkarlığın dövlət sahibkarlığına nisbəti, yüksək texnologiya tutumlu sahələrin aşağı tutumlu sahələrə nisbəti, yüksək ixtisaslı sahənin aşağı ixtisaslı sahəyə nisbəti, yüksəkgəlirli bazarların azgəlirli bazarlara nisbəti və yüksək dəyər yaradan sektorların aşağı dəyər yaradan sektorlara nisbətivə daha üstün artımı hesabına yenidən balanslaşacaqdır.

Prespektivlərimiz dedikdə, bizim hər sferada maksimum inkişafımız nəzərdə tutulur. Ilk olaraq yoxsulluğun Azərbaycandakı və digər ölkələrdəki səviyyələrinə nəzər yetirəcəm. Əsasən "İnklüziv artım və inkişaf 2018" hesabatında inklüziv artım indeksinə görə İEÖ-lər üzrə birinci olan Noreç və İEOÖ-lər üzrə 1 ci yeri tutan Macarıstan ilə müqayisə edib prekspektivlərimizə nəzər salacam. Norveçdə yoxsulluq səviyyəsi 7.5%, Macarıstanda 14.9%, Azərbaycanda isə 16.1%-dir.Statistik göstəricilərdən göründüyü kimi Azərbaycanda yoxsulluğun səviyyəsi digərlərinə nisbətdə yüksəkdir.Bu göstəricini azaltmaq üçün müxtəlif inkişaf xarakterli tədbirlər həyata keçirilir.2025-ci ildən sonrayoxsulluq probleminin həlli üçün iki yanaşmaq olacaq: lazımlı iş yerlərinin aşılması; əməkhaqqı və digər gəlirlərin artırılması,zəruri ehtiyaclarına nail ola bilməyən insanlara ünvanlı sosial dəstək. Yoxsulların sayının azadılması, minimum əməkhaqqı artırılaraq orta əməkhaqqının 60 faizinə çatdırılacaq.

İndi isə səhiyyə sferasındakı prespektivlərinə nəzər salaq. İlk olaraq qabaqcıl ölkələr ilə müqayisə edəcəm.Səhiyyənin inkişaf səviyyəsi Norveçdə 44.8%, Macarıstanda 39.8%, Azərbaycanda isə 33.2%-dir. Bu statistik göstəricilərdən onu qeyd etmək olar ki.Azərbaycanin səhiyyəsinin inkişaf səviyyəsi hələdə yüksəldilməlidir.Bunun üçün prespektivlərə nəzər salaq: Səhiyyə sferasına ayrılan vəsaitlər ümumi daxii məhsulda payının artımı müşahidə olunacaq və ayrılan vəsaitlərin səmərəli,effektiv istifadəsi üçün mexanimzlər yaradılacaq. Səhiyyənin texniki və maiddi bazasının inkişafı üçün tibb müəssisələrinin təmiri,tikintisi və

onların müasir avadanlıqlarla təchizatı həyata keçiriləcək,bununla yanaşı səhiyyə sferası ilə bağlı olan proqramlar və planlar davamlı şəkildə həyata keçiriləcək.

Səhiyyə sferasının idarə olunmasında mərkəzləşmədən imtina olunaraq, icraçı funksiyalarının iqtisadi-inzibati formalarla əvəzlənəcək.

Hər bir şəxs icbari tibbi sığorta ilə təmin ediləcək ,bunun əsasında tibbi xidmətin keyfiyyəti yüksələcək, tibbi xidmət göstərilən şəxslərin hüquqlarının qorunması üçün nəzarət mexanizmləri yaradılacaq.

Dövlət tərəfindən geniş yayılmış xəstəliklərə qarşı mübarizə, əhalinin sağlamlığının yüksədilməsi üçün profilaktik tədbirlər, narkomaniya,tütünçəkməyə sanitariya maarifi işi, alkoqolizmə qarşı mübarizə beynəlxalq təcrübəyə əsaslanan dövlət proqramları ilə həyata keçiriləcəkdir. Yoluxucu xəstəliklərin qarşısını almaq məqsədi ilə profilaktika tədbirləri gücləndiriləcək, 2015–2020-ci illər üçün epidemioloji -sanitariya xidmətin İnkişaf Proqramları işlənəcək 2013–2020-ci illər üçün xüsusi Strategiya tətbiq ediləcək, sağlam yaşam üçün imkanlar yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək.

Uşaqların və anaların sağlamhəyat tərzlərini yüksəltmək üçün 2013–2020-ci illəri üçün Dövlət Proqramı qəbul ediləcək.

Həyati vacib olan dərman preparatlarının hər kəs üçün iqtisadi və fiziki cəhətdən əlçatan olmasının, dərman preparatlarının səmərəliliyi , keyfiyyəti və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə önəmli tədbirlər görüləcəkdir.

Səhiyyə sferasında olan kadrların bilik ,bacarıqlarının artırılması, xarici təcrübələrə yiyələnmək məqsədi ilə zəruri tədbirlər həyata keçiriləcək.Səhiyyədəki kadırların inkişafı üçün ən geniş imkanlar yaradılacaq

Əhalinin sağlamlığının qiymətləndirilməsi üçün monitorinq üzrə səhiyyə informasiya sistemi , tibbi elektron registrləri yaradılacaqdır.

Növbəti isə təhsil sferasına nəzər yetirmək istəyirəm. Norveçdəvə Macarıstanda təhsilin səviyyəsi Azərbaycandan yüksəkdir. Azərbaycandaki təhsili Macarıstan və Norveçdəki təhsil səviyyəsinə çatdırmaq üçün aşağıdakı prespektivlər nəzərdə tutulur: Təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə, idarəetmə modelinə üstünlük veriləcəkdir. Bu onunla nəticələnəcək ki, hər növ

təhsil müəssisələrinin müstəqilliyinə imkan verilməsi, müasir idarəetmə texnologiyaların tətbiqi kimi istiqamətlərdə islahatyönümlü tədbirlərlə həyata keçiriləcəkdir.

Dövlət orqanlarının təhsil sistemində həyata keçirdikləri tənzimləmə və idarəetmə səlahiyyətləri və funksiyaları beynəlxalq təcrübəyə uyğun müəyyənləşdiriləcək, onların fəaliyyətinin effektiv həyata kecirilməsi üçün mexanizmlər yaradılacaqdır.Azərbaycanda uşaqların məktəbəqədər təhsillərinin səviyyəsi orta Avropadakı göstəricilərin səviyyəsinə çatdırılacaqdır. Məhz buna görə dövlət uşaq bağçalarının sayını artırır, təchizatının və şəraitin yaxşılaşdırılması ilə bərabər müxtəlif mülkiyyət formasına aid məktəbəqədər təhsil müəssisələrinin tikilməsi, uşaq bağçalarının şəbəkələrinin sayının artırılması və fəaliyyətlərinin dəstəklənməsi məqsədi ilə tədbirlər həyata keçiriləcək, mexanizmləri yaradılacaqdır.

Məktəblərin əsaslı təmiri,tikintisi davam etdiriləcək,ümumi təhsil müəssisələri rasionallaşdırılması üçün xüsusi proqramlar hazırlanır və həyata keçiriləcəkdir.

Ümumi təhsil 12 illik sistemə keçid edəcək və buna görə də dərsliklər və təhsil proqramları yenilənəcək. Şagirdlərin ümumi inkişafını ,fəallığını, ləngidən “yaddaş məktəbi”ndən “düşüncə və təfəkkür məktəbi”nə keçid məqsədi ilə tədbirlər görüləcəkdir. İstedadlı uşaqlar üçün orta təhsil səviyyəsində fərdi inkişafetdirici proqramlar yaradılacaqdır. Hətta,xüsusi qayğıya ehtiyac duyan, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün korreksiyaedici, inkişaf etdirici,və inklüziv təhsil proqramları yaradılacaq.

Məktəbdənkənar təhsilin kefiyyətinin və effektivliyinin yüksəldilməsi üçün müasir təhsil proqramları həyata keçiriləcək. Peşə təhsili də əsaslı şəkildə təkmilləşəcək və müasirləşəcək, vətəndaşların peşə təhsilinə maraqlarının artması və cəlb olunma halları artacaq, ölkə iqtisadiyyatının tələbatına əsasən uyğunlaşdırılacaqdır.

Bölgələrin inkişafı üçün mütəxəssislərə tələbatı vacibliyini nəzərə alınaraq, regional kolleclərin yaradılması məqsədi ilə tədbirlər görüləcək, təhsilin

keyfiyyətinin yüksədilməsi üçün ilk peşə, orta və ali təhsil pillələrində mütəxəssislər yetişdirən təhsil kompleksləri yaradılacaq.

Ali təhsil müəssisələri ərtafında universitet kampuslar və texnoparklar yaradılacaqdır. Ölkənin iqtisadi-sosial inkişaf tələblərinə uyğun olan innovasiya mərkəzləri və ali təhsil müəssisələrinin bacariq və biliyə malik olan mütəxəssis yetişdirmə mərkəzi olması üçün dəstək olan mexanizmlerlər tətbiq olunacaqdır. Ali təhsil müəssisələrində tədqiqatlar müasir standartlara əsasən aparılacaq, elmin informasiyanın təmin olunmasının gücləndirilməsi, beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsi məqsədi ilə tədbirlər görüləcəkdir.Əsas istiqamətlərindən biri təhsil sisteminin informasiyalaşdırılmasıdır. Buməqsədlə Azərbaycan Respublikasında 2013-2020-ci illərdə təhsilin informasiyalaşdırılmasına görə Dövlət Proqramı hazırlanacaqdır. Dövlət Proqramında Azərbaycanın hər bir bölgəsindəki təhsil müəssisələrinin internetlə əlaqəsi təmin olunacaq, hər bir təhsil müəssisəsi lazım olan müasir texniki avadanlıqlarla təmin ediləcək və vahid təhsil şəbəkəsi reallaşdırılacaqdır.

Elektron təhsil tətbiqi genişləndiriləcək, şagirdlər və müəllimlərə öyrənmək üçün virtual mühiti formalaşdırılacaqdır.

Təhsil sisteminin nailiyyətlərinin formalaşmasında müəllim amilinin əhəmiyyətini nəzərə almaqla müəllim hazırlığının təkmilləşdiriməsinə xüsusi diqqət verləcəkdir. Hər bir təhsil müəllimləri üçün interaktiv təlim və inklüziv təhsil üzrə ixtisasartırma təşkil olunacaq, hər bir müəllimin İKT bilik və bacarıqlarına malik olması məqsədi ilə aktiv sistem yaradılacaqdır.

Müəllimlərin təkmilləşdirilməsi Azərbaycanda beynəlxalq standartlarla, təcrübələrə uyğunlaşdırılacaq, müəllimlər üçün yeni stimullaşdırıcı ixtisasartırma mexanizmi inkişaf etdiriləcək. Bunlarla bərabər, nəticələrə əsaslanaraq diferensial əmək haqqı və mükafatlandırma mexanizmi yaradılacaqdır. Beynəlxalq təcrübəyə uyğun olaraq pedaqoji kadrların yeni işə qəbulu mexanizm təkmilləşdiriləcək, ucqar kənd məktəblərinin müəllim kadrları ilə təmin edilməsi üçün maddi stimullaşdırma tədbirləri həyata keçiriləcək.

Azərbaycan təhsili ilə Avropa təhsilinin inteqrasiyası sürətləndiriləcək. Bolonya prosesinin və Təhsil standartlarının unifikasiyası genişləndirilməsi ilə bərabər beynəlxalq əməkdaşlıqların genişləndirilməsinə, təhsil sferasında tətbiq olunan beynəlxalq proqramlarda fəal iştirakı üçün şəraitin yaradılmasına xüsusi diqqət yetiriləcək. Bununla bərabər azərbaycanlı tələbələrin 2015- cil ildən xarici universitetlərdə sayının artımı müşahidə olunacaq. Xarici ölkələrədə məzun olumuş kadrların potensialından səmərəli istifadə olunacaq. 2015–2020-ci illər üçün azərbaycanlı gənclərin xarici ölkələrin təhsil müəssisələrində təhsil almasına görə yeni Dövlət Proqramı həyata keçiriləcək.

Indi isə gender bərabərliyinə nəzər yetirək. Norveçdə- 0.830,Macarıstanda- 0.670 A zərbaycanda -0.676-dır.Bu göstərici digər ölkələrlə müqayisədə eynidir.

Bu istiqamətdə dövlət siyasətinin əsas məqsədləri gender əsaslı zorakılıq hallarının aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi, Əmək bazarında kişilər və qadınlar üçün eyni imkanlrın yaradılması, qadınları iş həyatında önə çəkmək, rəhbər vəzifəsində qadınların yer tutma imkanlarının genişləndirilməsi təşkil edəcəkdir.

Konsepsiyanın məqsədlərind biri ekoloji baxımdan güclü sosial iqtisadi inkişafdır.Bu sahədə də prespektivlər nəzərə tutulub. Təbii sərvətlərdən effektiv istifadə ,xammala qənaət, və ətraf mühitə ziyan dəyməməsi istiqamətində tullantisız və ya az tullantısız texnologiyaların tətbiqi üzrə vacib işlər görüləcəkdir. Tullantıların hansı üsullar ilə idarə olunması araşdırılacaq. Məişət və sənaye tullantıların duzgun idarə olunması üçün xüsusi müəssisələr yaradılacaq.

Daşqın və subasmaya meyilli olan ərazilər müəyyənləşdirilir,daimi proqnozlar hazirlancaq.

Torpaqların atropogen, səhralaşma, həddən artıq çirklənməsinə və zərər görməsinə, yararsız hala düşməsinə qarşı zəruri tədbirlər görüləcək.

Azərbaycanda son on illdə inkişaf edən hər bir sahədə,iqtisadiyyatın inkişafında da ekoloji inkişaf ön plandadır.

Konsepsiya müddətində mənzil-kommunal təsərrüfatı sferasında islahatlar aparılacaq, əhalinin su və kanalzasiya xidmətlərində istifadə inkanlari inkişaf

etdiriləcək, müasir texnologiyalardan istifadə artacaq.İqtisadi cəhətdən səmərəsiz olan qazanxanalar leğv ediləcək, əhali müasir istilik sistemləri ilə təmin olunacaq.

Bunlarla bərabər, ətraf mühitin qorunmasına dair qanunvericiliyin beynəlxalq təcrübəyə əsasən təkmilləşdirilməsi, nəzarət və monitorinq sistemlərin yaradılması istiqamətində önəmli addımlar atılacaq.

Ölkəmizdə ətraf mühitin qorunması üçün beynəlxalq əməkdaşlığın genişləndirilməsi, insanların ətraf mühiti qoruma mədəniyyətlərinin genişləndirilməsi məqsədi ilə ictimai məlumatlandırma aparılacaq.

# Nəticə

Təhlillər belə nəticəyə gəlməyə əsas verir ki, 80-ci illərdən başlayaraq beynəlxalq birlikdə ekoinkişaf, dağıtmadan inkişaf, ekosistemin dayanıqlı inkişafını, bir sözlə davamlı inkişafın zəruriliyi dərk edildi və bu məsələyə diqqət artdı. Davamlı inkişaf məzmununu dəqiqləşdirdikdə bel nəticəyə gəlirik ki, davamlı inkişaf deyərkən elə inkişaf nəzərdə tutulur ki, "gələcək nəsillərin öz tələbatlarını ödəmək imkanlarını pozmadan indiki nəslin tələbatlarını ödəmək imkanları təmin olunsun". Davamlı inkişaf modeli adlanan yeni inkişaf modelinə keçid mövcudluğunu qoruyub saxlamağa və gələcək inkişafa can atan dünya birliyinin təbii reaksiyası idi. Davamlı inkişaf konsepsiyası əsasən üç nöqteyi nəzərin – iqtisadi, sosial və ekoloji nöqteyi nəzərlərin birləşməsinin nəticəsi olaraq yaranıb. Davamlı inkişaf konsepsiyası məhdud resurslardan optimal istifadə ilə bərabər, xammal hasilatı və emalı da daxil olmaqla, təbiət , enerji və material qoruyucu texnologiyaların istifadəsini, ekoloji yararlı məhsulların yaradılmasını, tullantıların azaldılması, emalı və məhv edilməsini nəzərdə tutur.

İnkluziv artımın məzmunun dəqiqləşdirdikdə belə nəticəyə gəlmək olar ki,inkluziv artım deyərkən hər bir ölkədə, hər sferada cəmiyyətin bütün təbəqələrinə bərabər imkanlar yaradan artım nəzərdə tutulur. Biz Minilliyin İnkişaf Məqsədləri ilə 2015 –ci ildə qəbul edilmiş "Bizim dünyamızı dəyişən 2030-cu ilə qədər davamlı inkişaf gündəliyi" sənədindəki məqsədləri müqayisə etsək görərik ki,2015 illərdə inkluzivliyin əhəmiyyəti daha çox artıb.Belə ki,Minilliyin İnkişaf məqsədlərinin az bir hissəsi inkluziv artımla əlaqəlidirsə, 2015-ci ildəki sənəddə əks olunan məqsədlərin çoxu inkluziv artımla bağlıdır.

İnklüziv artım konsepsiyası geniş mütəxəssis dairəsi tərəfindən tez bir zamanda qəbul olunmasına baxmayaraq, bu gün "inkluziv artım" konsepsiyasının vahid tərifi yoxdur. Beləliklə, Dünya Bankı iqtisadiyyatın bütün sahələrində geniş şəkildə yayılmış, işlərinin əhəmiyyətli bir hissəsini əhatə edən və bazar və resurslara bərabər çıxış imkanları ilə xarakterizə edilən yüksək və davamlı artım kimi müəyyənləşdirir.

Davamlı inkişafın təmin edilməsinin cari vəziyyətinin təhlilini Azərbaycanda yoxsulluğun aradan qaldırılması, səhiyyə,təhsil,sosial və gender bərabərliyindəki statistik göstəricilər əsasında apardım və belə nəticəyə gəlmək olur ki. Azərbaycanda bəzi sferada davamlı inkişaf təmin etmək üçün cari vəziyyət normasındadır amma bəzi sferalar var ki, onların inkişaf məqsədi ilə həyata keçiriləcək tədbirlərə ehtiyacları var.

Azərbaycanda inkluziv artımın təmin edilməsi perspektivlərinin müəyyənləşdirilməsi. Bu davamlı inkişafın təmin edilməsinin cari vəziyyətinin təhlilinin ardı olaraq müəyyənləşir.Belə ki, "İnklüziv artım və inkişaf 2018" hesabatındasiyahlnda ön siralarda yer alan ölkələr ilə müqayisə nəticəsində Azərbaycanda bəzi sferaların inkişafa ehtiyacının müəyyənləşdirilməsi ilə yanaşı onun perspektivləri də müəyyənləşdirdim.

Milli iqtisadiyyatımızın perspektivi çərçivəsində dörd əsas strateji hədəf nəzərdə tutulmuşdur. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin hazırlamasının nəticəsi olaraq real və maliyyə sferaları arasında balansın təmin edilməsi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi nəzərdə tutulu. Milli iqtisadiyyat perspektivində birinci hədəf olaraq, ölkəmizdə fiskal dayanıqlılıq olacaq və monetar siyasət üzən məzənnə əsasında qurulacaqdır. Makroiqtisadi sabitliyin təmin edilməsində monetar və fiskal siyasətin uzlaşdırılması önəmli faktorlardan biri olacaqdır. İkinci hədəf səhmlərinin nəzarət və özəlləşdirmənin həyata keçirilməsi ilə iqtisadi dinamikliyə malik olmaqdır. Üçüncü hədəf isə insan kapitalının inkişafıdır.Beləki insan kapitalina dəstək əmək bazarının genişlənməsinə səbəb olacaqdır ki, əmək bazarının inkişaf etməsi milli iqtisadiyyat perspektivində nəzərdə tutulan əsas məqsədlərdən biridir.Biznes mühitinin yaxşılaşdırılması milli iqtisadiyyat perspektivində diqqət mərkəzindədir.

# Ədəbiyyat siyahısı


- Why nations fail -Daron Acemoglu and James Robinson (2012)
- The Inclusive Growth and Development Report 2017
- TheInclusiveGrowthandDevelopmentReport 2018
- Инклюзивный рост: понятие, индикаторы, международный опыт- Экономист магистр экономики и управления
- География, институты и истоки глобального неравенства: критика концепции экономического развития -Аджемоглу и Робинсона(Москва
- Институт экономики2016)
- İnclusive growth , full employment,and structural change –Jesus Felipe
- Shifting Discourse on China’s growth and development (Limin Wang)
- Major factors behind regional disparity of economic growth 1996-2010 (Dilip Dutta and Yibai Yang)
- Service sector’s growth in countries:Human capitals( Guan Long Ren Dilip Dutta)
- Strategic road maps for the national economy and main economic sectors (2020)
- Biomimicry: Innovation Inspired by Nature (1997) by Janine Benyus
- Conservation and Sustainable Development:Linking Practice and Policy (by Jonathan Davies)
- The Economics of Sustainable Development (By Sisay Asefa)
- Education for Sustainable Development (By Zenelaj, Engjellushe)
- https://www.stat.gov.az/
- http://www.oecd.org
- www.adb.org
- https://www.weforum.org
- https://thehagueacademy.com